Xalqın qəzeti!

# Xalq qəzeti

№ 25 (30719) 5 fevral 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dövlət dəstəyi Azərbaycan idmanına dünya şöhrəti qazandırır

## Prezident İlham Əliyev "Vətən" İdman Liseyində yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Tərlan Heybətov adına "Vətən" İdman Liseyində aparılmış yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına liseydə yaradılan şərait barədə məlumat verdi.***

Bildirildi ki, "Vətən" İdman Liseyi 2022-ci ildə 126 nömrəli tam orta məktəbin bazasında yaradılıb. Birinci Qarabağ müharibəsi şəhidi Tərlan Heybətovun adını daşıyan 600 şagird yerlik Liseydə dövlət əsaslı vəsait qoyuluşu hesabına aparılan yenidənqurma işləri 2024-cü ilin dekabrında başa çatdırılıb.

Liseyin əsaslı təmir olunmuş tədris korpusunda 22 sinif otağı var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib.

*(ardı 2-ci səhifədə)*

# Amerika ermənilər üçün sabun köpüyü

## *Paşinyanın "ideologiya nağılı" barədə bir neçə söz*

**İndiyədək Ermənistanın 44 günlük müharibədəki məğlubiyyəti ilə bağlı müxtəlif fikirlər səslənib. Şübhəsiz, bundan sonra da səslənəcək. Söhbət erməni düşüncə mərkəzləri tərəfindən ortaya atılmış mülahizə və tezislərdən gedir. Həmin tezislərdən birində deyilirdi ki, Ermənistan tipik erməni xəstəliyinin təsiri altındadır və ölkənin, eləcə də erməni xalqının bundan qurtulması üçün kütləvi qırğınlara ehtiyac var.**

Bu, nə qədər qəddarcasına deyilsə də, erməni avantürizminin aradan qalxması baxımından başqa variantlar ağlabatan görünmür və yenə eyni durum müşahidə olunmaqdadır. Doğrudanmı, ermənilərin silkələnib özlərinə gəlmələri üçün hansısa qlobal fəlakətlə üzləşmələri labüddür? Yəni başqa yol, hansısa digər formul yoxdurmu? Suallara cavab tapmaq çətindir. Elə bu yazı tam anlamda məsələyə aydınlıq gətirmək məqsədi daşıyır. Elə isə mövzuya keçək.

Ermənistanın baş naziri dünyanın harasına gedirsə-getsin, orada erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri ilə görüşür. Bu görüşlər, bir növ, adət halını alıb. Məsələn, Nikol ötən ay Davos Forumu çərçivəsində İsveçrədə olarkən, Sürixdə yerli erməni diasporunun nümayəndələri ilə bir araya gəldi və kifayət qədər, səs-küylü açıqlama verdi.

Paşinyan, faktiki olaraq, "erməni soyqırımı"nın saxta mahiyyət daşıdığını bildirdi və onun söylədiklərindən belə çıxdı ki, qondarma iddia ortaya imperialist dairələrin maraq və mənafelərinin təminatı məqsədilə atılıb. Əlbəttə, baş nazir subliminal şəkildə Rusiyanı günahlandırdı. Təxminən belə: keçmiş SSRİ ötən əsrin 30-cu illərində qabardılmayan "erməni soyqırımı" iddiasını 50-ci illərdə ona görə dövriyyəyə gətirdi ki, Türkiyə NATO-ya üzv olmuşdu. Moskva Alyans ölkəsinin Sovetlər Birliyinin, yəni Sovet Ermənistanın sərhədlərində görünməsini təhdid hesab etmişdi və istəmişdi ki, ermənilərdə Ankaraya qarşı nifrət ritorikası aktuallıq qazansın.

*(ardı 3-cü səhifədə)*



# Sizi "gözləyirik", cənablar!

## *Avropa İttifaqının şərti sərhəddəki casus missiyası həddini aşmaqdadır*



**Avropalı casuslar Azərbaycana hücum planı hazırlayırlar. Avropa İttifaqının monitorinq missiyası Ermənistan silahlı qüvvələrinin döyüş postlarından birbaşa Azərbaycan ərazilərini müşahidə edir və müəyyən qeydiyyatlar aparırlar.**

Bəli, kadrlardan göründüyü kimi, Aİ missiyasının kamuflajlı casusları əllərindəki durbinləri Ermənistan ordusunun Zəngilan istiqamətindəki döyüş postlarından Azərbaycan ərazisinə doğru yönəldiblər. Eyni zamanda, missiya üzvləri öz aralarında nəyisə fəal müzakirə edirlər. Onlar əllərini uzadaraq Azərbaycan istiqamətində konkret nöqtələri göstərirlər. Aralarında fransalı jandarmların, alman hərbçilərinin də olduğu avropalı kəşfiyyatçıların Ermənistan ordusunun Azərbaycana hücum planını hazırlaması ehtimalını irəli sürənlər də var.

*(ardı 5-ci səhifədə)*

# USAID-in Gürcüstandakı gizlinləri ifşa edilir

***ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ətrafında qalmaqal böyüyür. Dünyanın ən zəngin adamı İlon Maskın ardınca Prezident Donald Tramp da bu üzdəniraq qurum barədə sərt fikirlərini açıqladı. Ağ evin sahibi açıq şəkildə USAID rəhbərliyini "radikal dəlilər dəstəsi" adlandırdı. Bəli, bu "dəlilər" bütün ölkələri – qonşu Gürcüstanı da uzun illərdir qarışdırmağa çalışırdı.***




Üzə çıxan məlumatlar göstərir ki, USAID-in digər ölkələrdə olduğu kimi, Gürcüstanda da bir məqsədi var – dövlət hakimiyyətini özünə tabe etmək, istədiyi gündəmi yerinə yetirmək və zərurət yarandıqda ölkədə daşı-daş üstə qoymamaq. İndi USAID-in hesab vermək vaxtıdır.

*(ardı 4-cü səhifədə)*

# Səfirliyin çölündə və ...içində




Səhifə ⇨ 5

## Cahan savaşını finişə yönəldən Yalta konfransı



Səhifə ⇨ 11

# Güzəştli kredit özəl sektoru irəli aparır



Səhifə ⇨ 7

# Dövlət dəstəyi Azərbaycan idmanına dünya şöhrəti qazandırır

## Prezident İlham Əliyev “Vətən” İdman Liseyində yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub



**(əvvəli 1-ci səhifədə)**

Bu korpusda kimya, fizika, biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hərbi hazırlıq kabinetləri, kitabxana, 240 yerlik akt zalı, inzibati və yardımçı otaqlar yerləşir. Liseydə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Təhsil ocağının idman korpusunda isə universal zal (basketbol, voleybol, gimnastika, qılıncoynatma və s.) və güləş zalı əsaslı təmir olunub. Bundan əlavə, trenajor, cüdo zalı, fizioterapiya otağı, reabilitasiya idman zalı, buxar və yardımçı otaqlar yenidən qurulub.

Layihə çərçivəsində 100 nəfərlik yataqxana korpusu da əsaslı təmir olunub. Buradakı yeməkxana 220 nəfər üçün nəzərdə tutulub. Korpusdakı mətbəx, camaşırxana və digər yardımçı otaqlar da ən müasir avadanlıqlarla təchiz edilib.

Qeyd edək ki, yenilənən təhsil müəssisəsində tədris V-XI siniflər üzrə aparılır. Şagirdlərin təlim-tərbiyəsi ilə 60-a yaxın müəllim məşğul olur.

Burada bölgələrdən gələn və peşəkar idmanla məşğul olan şagirdlərin yataqxana ilə təmin edilməsi də nəzərdə tutulur. Liseydə həmin idmançıların günlük yemək normalarına uyğun qidalanması da təmin ediləcək.

Təhsil ocağının həyətində geniş abadlıq işləri görülüb.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.



“Vətən” İdman Liseyində görülən işlər və yaradılan şərait də bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir. Paytaxtda və bölgələrdə yeni məktəblərin inşası, əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Liseydə yaradılan şərait həm də onu göstərir ki, Azərbaycanda təhsilin və idmanın inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil və idman sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.

***AZƏRTAC***

## Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Anura Kumara Dissanayakeyə

**Hörmətli cənab Prezident!**

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli qaydada dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 fevral 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında” 2017-ci il 18 oktyabr tarixli 1638 nömrəli və “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 oktyabr tarixli 1638 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1805 (Cild I) 2.2-ci bəndində “iki” sözü “üç” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2316 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Nizamnaməsi”nin 4.3-cü bəndinin ikinci cümləsində “üç” sözü “dörd” sözü ilə, “iki” sözü “üç” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 fevral 2025-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 18** **Bakı şəhəri, 31 yanvar 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 30 dekabr tarixli 520 nömrəli, “Elektrik qurğularının quraşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 11 fevral tarixli 40 nömrəli və “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 11 fevral tarixli 41 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2100 (Cild I); 2024, № 4, maddə 471, № 9, maddə 1090) ləğv edilsin.

2. “Elektrik qurğularının quraşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 191 (Cild I) ləğv edilsin.

**3.** “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 192 (Cild I); 2024, № 9, maddə 1090) ləğv edilsin.

**4.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 20** **Bakı şəhəri, 1 fevral 2025-ci il**

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I); 2024, № 9, maddə 1061; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 dekabr tarixli 558 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4 nömrəli əlavənin 10-1-ci hissəsi ləğv edilsin;

1.2. 7 nömrəli əlavənin sonuna aşağıdakı məzmunda qeyd əlavə edilsin:

“Qeyd. Akt qeydinin 9-1-ci hissəsində nəzərdə tutulan məlumatlar yalnız 2025-ci il 1 iyuladək qeydə alınmış nikahların pozulması qeydə alınarkən göstərilir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 dekabr tarixli 534 nömrəli və 29 dekabr tarixli 558 nömrəli, 2025-ci il 22 yanvar tarixli 12 nömrəli qərarları) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.3-cü bənd üzrə:

2.1.1. birinci abzasa “övladlığa götürülənlər arasında” sözlərindən sonra “, qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları arasında, bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında” sözləri əlavə edilsin;

2.1.2. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“Nikaha daxil olmaq istəyən şəxslər arasında bu bəndin birinci abzasında qeyd olunan qohumluq əlaqələrinin mövcud olması qeydiyyat şöbəsinin, konsulluq idarəsinin və icra hakimiyyəti nümayəndəliyinin vəzifəli şəxsi tərəfindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə yoxlanılmalıdır. Bu məlumatların informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda nikaha daxil olmaq istəyən şəxslərin və onların valideynlərinin doğumu haqqında şəhadətnamələrin surəti nikaha daxil olmaq haqqında ərizəyə əlavə edilir.”;

2.2. 3.14-cü bənd ləğv edilsin;

2.3. 6.8-ci bənddə “valideynlər nikaha daxil olmamışlarsa, onların” sözləri “valideynlərin” sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 may tarixli 81 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011,

№ 5, maddə 453 (Cild I) ilə təsdiq edilmiş “İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram”ın “4. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı” bölməsinin 4.4.3-cü yarımbəndində “erkən nikah hallarının azaldılması məqsədi ilə” sözləri “erkən nikahın mənfi nəticələrinə dair” sözləri ilə əvəz edilsin.

**4.** “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803 (Cild I); 2024, № 2, maddə 235, № 10, maddə 1164) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissədən “18 yaşadək (erkən nikah) və” və “, o cümlədən müvafiq ərizələrindəki məlumatlara əsasən qohum hesab edilən şəxslər arasında nikaha” sözləri çıxarılsın;

4.2. həmin Qərarla təsdiq edilmiş “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” üzrə:

4.2.1. 2.1-ci bənddə “Bu Qaydada” sözləri “Bu Qaydanın məqsədləri üçün” sözləri ilə əvəz edilsin;

4.2.2. 2.1.1-ci yarımbəndə “bağlanılmış nikah” sözlərindən sonra “(2025-ci il 1 iyuladək qeydə alınmış) və ya erkən evlilik” sözləri əlavə edilsin;

4.2.3. 2.1.2-ci yarımbəndə “bağlanılmış nikah” sözlərindən sonra “(2025-ci il 1 iyuladək qeydə alınmış) və ya nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq” sözləri əlavə edilsin;

4.2.4. 6.1.6-cı yarımbənddən “nikaha daxil olmaq üçün müraciət edən erkən nikah yaşında olan” sözləri çıxarılsın;

4.2.5. 6.1.8-ci yarımbənddən “18 yaşadək və” və “, o cümlədən qohumlar” sözləri çıxarılsın.

**5.** Bu Qərar 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 21** **Bakı şəhəri, 3 fevral 2025-ci il**

**“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169) 2-ci hissəsində “yanvarın” sözü “aprelin” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 22** **Bakı şəhəri, 3 fevral 2025-ci il**

**“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172) 2-ci hissəsində “yanvarın” sözü “aprelin” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# AZAL təyyarəsinin Aktauda qəzaya uğraması ilə əlaqədar araşdırmanın ilkin hesabatı

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Aktau hava limanı yaxınlığında qəzaya uğraması ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) 1944-cü il Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinin tələblərinə uyğun aparılan araşdırmanın ilkin hesabatı barədə məlumat yayıb. AZƏRTAC-ın təqdim etdiyi məlumatda bildirilir:**



"2024-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Bakı şəhərindən Rusiya Federasiyasının Qroznı şəhərinə J2-8243 reysi üzrə müntəzəm uçuş həyata keçirən AZAL-a məxsus və dövlət reyestrində 4K-AZ65 nömrəsi ilə qeydiyyata alınmış "Embraer 190-100 IGW" tipli sərnişin hava gəmisi Qazaxıstan Respublikası ərazisində Aktau hava limanı yaxınlığında qəzaya uğrayıb.

Qəza nəticəsində 2 uçuş heyəti üzvü (kapitan və ikinci pilot), böyük təyyarə bələdçisi və 35 sərnişin həlak olub. İnsan tələfatına və xəsarət alanların olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirib və 29 nəfərin həyatını xilas etmək mümkün olub. Qazaxıstan Respublikasında gözlənilən qəza enişi barədə məlumat daxil olduqdan dərhal sonra zəruri qəza-xilasetmə tədbirləri həyata keçirilib, sağ qalanlar təxliyə edilərək tibbi yardım göstərilib.

Azərbaycan və Qazaxıstanın tərəfdar olduğu 1944-cü il Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinə əsasən, ərazisində hadisənin baş verdiyi dövlət kimi Qazaxıstan araşdırmaya başlayıb. Bu araşdırmanın məqsədi uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi olub, təqsirli şəxslərin müəyyən edilməsi ilə bağlı deyildir. Araşdırmanın nəticələri beynəlxalq aviasiya normalarına uyğun olaraq qəzanın obyektiv səbəblərini müəyyənləşdirmək və gələcəkdə oxşar hadisələrin qarşısını almaq üçün BMAT və maraqlı tərəflərə tövsiyələr verməkdir. Azərbaycan Respublikası hava gəmisinin istismarçısı, habelə mülkiyyətçisi olan ölkə statusu ilə araşdırmada iştirak edib.

Azərbaycan nümayəndələri araşdırmanın bütün mərhələlərində, o cümlədən hadisə yerinə baxışın həyata keçirilməsi və faktların qeydiyyatı məqsədilə foto və videogörüntülərin təmin edilməsi, hava gəmisinin "qara qutu"larında (CVFDR avadanlıqlarında) olan məlumatların Braziliyanın Aviasiya Qəzalarının Araşdırılması və Qarşısının Alınması Mərkəzində (CENIPA) oxunması prosesində iştirak ediblər, əlavə məlumat və sübutların toplanmasını da həyata keçiriblər.

Məlumat üçün bildiririk ki, CVR (Cockpit Voice Recorder --kabina diktofonu) radio ötürmələrini və kabinadakı səsləri, məsələn, pilotların səslərini və kənar səsləri yazır, FDR (Flight Data Recorder - uçuş məlumatları qeydiyyatçısı) isə vaxt, hündürlük, uçuş sürəti, kurs və təyyarənin mövqeyi kimi uçuş əməliyyatları ilə bağlı vacib parametrləri izləməlidir. "Embraer 190-100 IGW" təyyarəsində hər iki funksiyanı birləşdirən iki CVFDR cihazı mövcud olub.

BMAT tələblərinə əsasən, qəzanı araşdıran dövlət 30 gün ərzində ilkin faktiki məlumatları əks etdirən hesabatı BMAT və maraqlı tərəflərə təqdim etməlidir. Qazaxıstanda yaradılmış araşdırma komissiyası bu hesabatın hazırlanmasına Azərbaycan nümayəndələrini də cəlb edib. İlkin hesabat aşağıdakı faktları təsdiqləyir:

1. 2024-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Bakı şəhərindən Rusiya Federasiyasının Qroznı şəhərinə J2-8243 reysi üzrə müntəzəm uçuş həyata keçirən "Azərbaycan Hava Yolları" QSC-yə məxsus və dövlət reyestrində 4K-AZ65 nömrəsi ilə qeydiyyata alınmış "Embraer 190-100 IGW" tipli sərnişin hava gəmisi uçuşa başladıqda və Qroznıya qədər olan uçuş hissəsində tam uçuşa yararlı vəziyyətdə olub. Hava gəmisinin, o cümlədən onun idarəetmə sisteminin uçuşa yararlılıqla əlaqədar bu məlumatlar FDR vasitəsilə öz təsdiqini tapıb.

2. Hava gəmisinin mühərriklərinin hər ikisi qəza anına qədər hər hansı texniki problem olmadan çalışıb. Bu məlumat FDR vasitəsilə təsdiq olunub.

3. Hava gəmisi Rusiya Federasiyasının hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində uçuş əməliyyatları həyata keçirərkən GPS siqnallarının itməsi halı ilə üzləşib.

4. Hava gəmisi hava şəraitinin əlverişli olmaması səbəbindən Qroznı üzərində ikinci enişi yerinə yetirə bilmədikdən sonra kapitan Bakıya qayıtmaq barəsində qərar verib. Bu qərarın qəbul edilməsindən sonra Qroznı üzərində CVR-də 24 saniyə aralıqla iki dəfə kənar səsin gəlmə faktı qeydiyyata alınıb.

5. CVR və FDR məlumatlarının tutuşdurulması nəticəsində müəyyən edilib ki, birinci kənar səsdən 4 saniyə sonra 3-cü hidravlik sistem, 6 saniyə sonra 1-ci hidravlik sistem, 21 saniyə sonra 2-ci hidravlik sistem funksionallığını itirməklə sıradan çıxıb.

6. Hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması faktı aşkar olunub və foto, habelə video qeydiyyata alınıb. Həmin zədələr hava gəmisinin füzelyajının arxa hissəsində, xüsusilə şaquli və üfüqi stabilizatorlarında çox sayda, habelə sol qanadda və sol mühərrikdə aşkar olunub.

7. Hava gəmisinin füzelyajında aşkar olunan zədələrin kənar obyektlərin təsiri nəticəsində formalaşması barəsində məlumat təqdim edilib. İlkin hesabatda hava gəmisinin quşlarla toqquşmasına işarə edən hər hansı fakt barəsində məlumat təqdim edilməyib.

8. Hava gəmisi qalıqlarının kor zədələrində olan hava gəmisinə məxsus olmayan kənar obyektlər aşkarlanaraq götürülüb və həmin kənar obyektlərin fotoşəkilləri ilkin hesabat mətnində ictimaiyyətə təqdim edilib. Gələcəkdə aşkar olunmuş kənar obyektlərin dəqiq mənsubiyyətinin müəyyənləşdirilməsi məqsədilə əlavə ekspertizaların keçirilməsi planlaşdırılıb.

9. 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer "Ковер" əməliyyatı barədə Qroznıya məlumat verir.

10. Oksigen balonunun partlaması ilə bağlı faktı ehtiva edən hər hansı bir məlumat qeyd olunmayıb.

Burada sadalanan faktların təsdiqi ilə bağlı olan foto, habelə audio və rəqəmsal qeydiyyat vasitələrindən çıxarışlar ilkin hesabatın mətnində verilib.

BMAT-ın Çikaqo Konvensiyasına əsasən ilkin hesabat hazırlandıqdan sonra qəzanın səbəbləri ilə bağlı qəza tarixindən 1 il ərzində yekun hesabat hazırlanmalıdır. Həmin yekun hesabatın hazırlanması ilə bağlı artıq Qazaxıstan Respublikası və araşdırmada iştirak edən digər dövlətlər tərəfindən işlərə başlanılıb".

# Azərbaycanın BMT yanında daimi nümayəndəsi fəaliyyətə başladı



**Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı (BMT) yanında daimi nümayəndəsi Tofiq Musayev bu gün etimadnaməsini təşkilatın Baş katibi Antonio Quterreşə təqdim edib.**

Görüş zamanı Tofiq Musayev Azərbaycana son səfərlərinə və Bakıda İqlim Sammitinin uğur qazanmasında əvəzsiz roluna görə Baş katibə təşəkkürünü bildirib. Daimi nümayəndə Azərbaycanın BMT-yə davamlı dəstəyini və təşkilatın məqsəd və prinsiplərinə uzunmüddətli sadiqliyini qeyd edib. O, həmçinin Azərbaycanın sülh və ədalətin təşviqinə, beynəlxalq hüququn möhkəmləndirilməsinə, çoxtərəflilik prinsipinin təbliğinə və dayanıqlı inkişaf gündəliyinin həyata keçirilməsinə öz töhfəsini verməyə davam etmək əzmini vurğulayıb.

***XQ***

# Amerika ermeniləri üçün sabun köpüyü

**(əvvəli 1-ci səhifədə)**

İndi N.Paşinyan ABŞ-da səfərdədir və Vaşinqtonda erməni icmasının təmsilçiləri ilə görüşüb. Nikol sözügedən təmas zamanı filosofluğa keçib və deyib ki, Ermənistanda ideoloji dəyişikliklər yaşanır. Ən mühüm dəyişiklik isə sən demə, hakimiyyət daxilində baş verirmiş: "Məsələ onda deyil ki, bizdən əvvəlki hakimiyyətdə fərqli ideologiya var idi və biz gəldik, onların ideologiyasını rədd etdik. Biz ideologiyanı təqdim edirik, indi ideoloji transformasiya gedir".

Paşinyan bildirmək istəyir ki, əvvəlki erməni iqtidarlarında ideologiya olmayıb. Buna bir söz demirik. Çünki müasir Ermənistan dövləti qonşulara qarşı ərazi iddiasına köklənmiş amorf quruluşdur. Bu dövlət 1918-ci ildəki sələfi kimi torpaq ələ keçirmək "niyyətinə" köklənmiş, istər 1918-ci ildə, istər 1920-ci ildə və sonra, istərsə də ümumən ötən əsrin 20-60-cı illərində mənfur məqsədinə çatmağı bacarmışdı. Məsələyə mövcud prizmadan yanaşsaq, 1991-ci ildə müstəqillik qazanmış Ermənistanın işğalçılığı hədəfə çevirməsində təəccüblü heç nə yoxdur. Necə deyərlər, ot kökü üstə bitər. Bu xəttə isə barbarlıq deyilir.

Təəccüblü olan N.Paşinyanın indi ideologiya barədə söz açmasıdır. O vurğulayır ki, vaxtilə Ermənistanın daha yüksək məqsədlərə çatmaq üçün dayaq nöqtəsi olduğuna dair təsəvvür formalaşmışdı və sözügedən məqsədlər tarixi keçmişlə bağlı idi. Nikolun fikrincə, ideologiya belə dəyişir: "Ermənistanın özü ən yüksək milli məqsəddir və Ermənistandan daha yüksək milli məqsəd ola bilməz. Ermənistanın özü ən yüksək məqsəddir, ona görə də diqqəti ölkənin funksional əhəmiyyətinə – təhlükəsizliyinə, rifahına və vətəndaşlarının xoşbəxt gələcəyinə yönəltmək çox vacibdir".

Bu yerdə yada N.Paşinyanın hələ müxalifətdə olarkən dilə gətirdiyi bir fikir düşür. Nikol demişdi ki, Qarabağ Ermənistanın üzərindən asılmış ağır daşdır və onu yerə atmaq lazımdır. Ancaq məlumdur ki, Paşinyan hakimiyyət kreslosuna əyləşib yerini möhkəmləndirdikdən sonra tamam başqa xəyala düşdü. Baş nazir müxtəlif bəhanələr gətirərək, Azərbaycanla danışıqlar prosesini pozdu, həmçinin, xalqımızın heysiyyatı ilə oynayaraq Cıdır düzündə sərxoş vəziyyətdə rəqs etdi. Ən əsası isə Xankəndinin mərkəzi meydanındakı çıxışı zamanı isə dedi: "Qarabağ Ermənistandır və nöqtə".

Qeyd edək ki, Nikolun bu bəyanatı müasir Ermənistan dövlətindəki Qarabağ ideoloji xəttinin indiyədək görünməmiş həyasızlıqla vurğulanmasından başqa bir şey deyildi. Onun tərəfdarları isə həyasızlığı bir qədər də genişləndirərək, "yeni ərazilər uğrunda yeni müharibələr" şüarını irəli sürdülər.

Elə isə əvvəldə diqqətə çatdırdığımız məqama keçid alaq. İdeoloji transformasiya prosesinin erməni xalqının tutduğu yola görə yaşandığını diqqətə çatdıran baş nazir hazırkı ideologiyanın Ermənistana mövcudluq şansı formalaşdırdığı qənaətinə gəlib. N.Paşinyanın dediklərindən belə çıxıb ki, Ermənistan 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətdən, savaşın dərin, yaxud dayazlığından asılı olmayan səbəblərindən keçərək, müstəqil və suveren dövlətə sahib olmaq şansı qazanıb. "Mən bu barədə uzun müddət düşündüm və belə qənaətə gəldim ki, qurbanlar heç nəyə deyil, Ermənistanın suverenliyi naminə verilib və indi biz sadəcə olaraq bu qurbanların gətirdiyi fürsətdən istifadəyə diqqət yetirməliyik".

Bəli, Ermənmistanın baş naziri dolayısı ilə təsdiqləyir ki, əgər 44 günlük müharibədəki acınacaqlı məğlubiyyət yaşanmasaydı, ölkəsi qəflət yuxusundan ayılmayacaqdı. Dolayısı ilə o, erməni milli identikliyi üçün qeyri-sağlam münasibətlər sisteminin mövcudluğu üzərində dayanır. Baş nazir sübut edir ki, bu identiklik yalnız zor yolu ilə anlayır. Başqa sözlə desək, Nikol məhz zora əsaslanmış rəftarı Ermənistanın ideoloji transformasiyası üçün başlıca seqment sayır. Necə deyərlər, ilan ulduz görməsə, ölməz.

Tam qətiyyətlə demək olar ki, N.Paşinyan fikirləri ilə eyni zamanda, tipik erməni xəstəliyindəki spesifikanı açıqlayır. Ancaq hesab edirik ki, hazırda başlıca məqam heç də bu deyil. Əsas məsələ baş nazirin və təmsil olunduğu komandanın özünün yaxın keçmişdə olanlardan nə dərəcədə dərs götürməsidir. Bu gün Ermənistan Azərbaycanla sülhə gəlmirsə, ölkəmizin şərtlərini qəbul etmirsə, tarixən erməni varlığının daşıdığı dağıdıcı missiyadan xəcalət çəkib üzr istəmirsə, deməli, Nikolun yüksək səslə söylədiyi və ideoloji görkəm verməyə çalışdığı hər bir tezis yalnız sabun köpüyüdür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Daxili işlər nazirinin sıra baxışı





**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 4-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# Milli Aviasiya Akademiyasında beynəlxalq konfrans

**Fevralın 4-də "Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasında Azərbaycan Gəncləri Gününə və ölkəmizin ilk telekommunikasiya peyki "Azerspace 1"in orbitə buraxılması tarixinə həsr olunan "Fevral məruzələri 2025: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" 10-cu beynəlxalq elmi-praktik gənclər konfransı işə başlayıb.**



Konfransa Rusiya, Qazaxıstan, Türkiyə, Ukrayna, Belarus, Almaniya, Böyük Britaniya, Fransa, İsrail və Azərbaycandan olmaqla 20-dən çox elm və təhsil müəssisəsi, o cümlədən 13 universitet, 7 tədqiqat mərkəzi, institut, dövlət qurumları və aparıcı təşkilatları təmsil edən 150-dən çox iştirakçı qatılıb.

Əvvəlcə konfrans iştirakçıları "MAA-nın yaradıcı tələbələrinin innovativ layihələri" adlı sərgi ilə tanış olublar. Sonra "Texnoritm Mərkəzi - MAA-nın innovativlik göstəricisi kimi" mövzusunda təqdimat olub.

Konfransı açan MAA-nın birinci prorektoru, professor Ədalət Səmədov MAA-nın rektoru, akademik Arif Paşayevin tədbir iştirakçılarına salamlarını və təbrikini çatdırıb.

Qeyd olunub ki, "Fevral məruzələri 2024"dən keçən 1 il ərzində MAA-nın gənc alimləri və tədqiqatçıları Azərbaycanda, eləcə də beynəlxalq miqyasda keçirilən bir sıra tədbirlərdə və layihələrdə, o cümlədən 75-ci Beynəlxalq Astronavtika Konqresində, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP-29), digər beynəlxalq konfrans və simpoziumlarda uğurla iştirak edib, nüfuzlu jurnallarda məqalələr çap etdirib, beynəlxalq patentlər alıblar.

Builki "Fevral məruzələri"nə doqquz bölmə üzrə aerokosmik sahənin müxtəlif istiqamətlərinin aktual problemlərinə dair 130-dan çox məruzə təqdim edilib.

Elmi müzakirələrlə yanaşı, konfransın proqramında "İT tədrisinin istehsalatla uyğunlaşması problemləri", "Tətbiqi optoelektronikanın aktual məsələləri", "Süni intellektin hüquq elmində tətbiqi" mövzularında dəyirmi masalar, həmçinin "Yaşıl logistika" mövzusunda ustad dərsi, eləcə də "Kainat haqqında düşüncələr" (müəllif: Əhəd Canəhmədov) kitabının geniş təqdimatı da nəzərdə tutulub.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov konfransın əhəmiyyətini vurğulayıb, aviasiya sahəsində əldə olunan uğurlardan danışıb. Nazir müavini bu sahənin inkişafında gənc kadrların rolunu qeyd edib, bu istiqamətdə MAA-nın fəaliyyətini yüksək qiymətləndirib.

Plenar iclasda Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri Məsud Əfəndiyev "Xaricdə yaşayan azərbaycanlı alimlərin Azərbaycan elm və təhsilinə inteqrasiyası", Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) direktor müavini Soltan Bayramov "Sənaye 4.0 texnologiyaları və aerokosmik sənaye", Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Balacanov "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinə təhdid yaradan əməllərin kriminallaşdırılması: beynəlxalq və milli hüquqi yanaşma" mövzularında çıxış ediblər.

Konfransın təşkilatçıları MAA, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos"), "Azərbaycan Hava Yolları" QSC və Azərbaycan Mühəndislik Akademiyasıdır.

Beynəlxalq konfrans fevralın 6-dək davam edəcək.

# Kahramanmaraşda "Azərbaycan" məhəlləsi sakinlərini gözləyir

**Kahramanmaraşda "Azərbaycan" məhəlləsində tikilmiş mənzillərin sahiblərinin ilk qrupu fevralın 6-da baş vermiş dağıdıcı zəlzələnin ikinci ildönümündə püşkatma vasitəsilə müəyyən olunacaq.**

Bu barədə jurnalistlərə Kahramanmaraş Böyük Şəhər Bələdiyyəsinin sədri Fırat Görgel məlumat verib. O bildirib ki, Azərbaycan hökumətinin xətti ilə yaşayış massivi ərazisində aparılan işlərə cavabdeh orqan Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyidir (MİDA). Türkiyə tərəfdən isə layihənin icrasında Mənzil İnşaatı İdarəsi (TOKİ) iştirak edir: "Azərbaycan xalqına və Prezident İlham Əliyevə səmimi təşəkkürümüzü bildiririk. Qardaş ölkənin dəstəyi ilə Kahramanmaraşda zəlzələ nəticəsində dağılmış ərazilər bərpa olunur".



"Kahramanmaraşda "Azərbaycan" məhəlləsi tək yaşayış binaları və ticarət meydanlarından ibarət deyil, burada həmçinin məktəb və mədəniyyət mərkəzi də inşa edilib. Layihə çərçivəsində aparılan işləri yaxın aylarda bitirmək planlaşdırılıb. Bundan sonra məskunlaşma prosesi başlayacaq", - deyə o qeyd edib.

Günün araşdırması

# Quru sərhədlərimiz sabitliyin sipəridir

## “Meşə qardaşları”, yoxsa meşədə qardaşlıq düşmənləri?

**İki mühüm dövlət qurumunun birlikdə bəyan etdiyi Qusar hadisələri barədə danışmazdan əvvəl müasir dünyanın ən nüfuzlu siyasətçilərindən olan Prezident İlham Əliyevin uzaqgörənliyini sübut edən iki mühüm faktı yada salmaq istəyirəm.**

**Birincisi:** Ötən il dekabrın 17-də “Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibə verən Prezident İlham Əliyev xatırlatmışdı ki, – hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun – verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanların icazəsi olmalıdır. Bu baxımdan ABŞ-da fəaliyyət göstərən anti-Azərbaycan xislətli USAID adlı məkrli strukturun fəaliyyətindən bəhs edən dövlət başçımız demişdi: “Zənnimcə, Tramp onu qadağan edə bilər. Mən düşündüyümü deyirəm, o, ümumiyyətlə, sıradan çıxa bilər. Bax, onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq”.

Bəs sonra nə oldu? Prezident İlham Əliyevin həmin çıxışından ay yarım sonra dünya mətbuatı yazdı ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) məlumatına görə, “agentliyin veb-saytı ötən şənbə günündən fəaliyyətini dayandırıb, qurumun rəsmi “X” hesabı da artıq bağlanıb. Adının yazıldığı lövhələr isə Vaşinqtonun mərkəzindəki baş qərargahın binasından yığışdırılıb. İşçilərə də qərargahın bağlandığı və distant fəaliyyət göstərəcəyi deyilib”. Donald Trampın yaxın silahdaşı olan İlon Mask isə USAID-i hətta qatı cinayətkarlıqda ( koronavirus pandemiyasını yaradanlara külli miqdarda vəsait ödəməkdə) ittiham edib. Fikrimizcə, bu, Prezident İlham Əliyevin siyasi uzaqgörənliyinin növbəti sübutu, təsdiqidir.

**İkincisi:** Azərbaycan Prezidenti yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində xatırlatmışdı: “Mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün – sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq... Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür”.




**Bəs sonra nə oldu?** Fevralın 3-də ölkənin kütləvi informasiya vasitələri yazdılar ki, Azərbaycanda beynəlxalq terror təşkilatları ilə əlaqəli olan radikal dini-ekstremist qruplaşma üzvlərinin terror-təxribat əməllərinin müəyyən edilməsi və qanunazidd fəaliyyətlərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən birgə kompleks tədbirlər görülüb. Məlumata görə, “Meşə qardaşları” adlı terror qruplaşmasının üzvlərinin Qusar rayonunun Hil, Cibir və Yasab kəndlərini əhatə edən meşə massivində yeraltı sığınacaqlar yaratmaları, bu sığınacaqları silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmələri təsbit olunub.

Məlum oldu ki, terrorçuların sığınacaqlarına keçirilən baxış zamanı oradan partlayıcı qurğuların hazırlanması üçün nəzərdə tutulan torf, aseton, detonatorlar, məsafədən idarə edilə bilən partlayıcı mexanizmlər, qəlpə qismində istifadə edilən armatur və qurğuşun hissələri, 2 ədəd “Kalaşnikov” avtomatı, 3 ədəd ov tüfəngi, patronlar və avtomat gülləri, eləcə də beynəlxalq səviyyədə terror təşkilatı kimi tanınmış qanunsuz silahlı birləşmənin simvolu olan bayraq müəyyən edilərək götürülüb.







Şəxsən mən bu xəbəri eşidəndə istər-istəməz polisin və təhlükəsizlik orqanlarının fəaliyyətini alqışladım. Qocaman həmkarlarımızdan biri isə mənim alqışımdan qat-qat dəyərli olan fikir səsləndirdi: “Gör quru sərhədlərimiz açıq olsaydı, o quldurların sığınacağından nələr tapılardı?

Ekspertlərin fikrincə, sərhədlərin bağlı qalması, miqrasiya axınının idarə olunmasına kömək etməklə yanaşı, ölkəyə qeyri-qanuni yollarla idxal edilən malların qarşısını almağa və daxili bazarı qorumağa imkan verir. Bundan başqa, ölkəmizin yerləşdiyi regionda terrorçuluq riski həmişə mövcud olub. Qonşu ölkələrdə fəaliyyət göstərən radikal dini qruplar, müxtəlif terrorçu təşkilatlar daim fəaliyyət göstərirlər. Bu baxımdan, quru sərhədlərinin bağlı qalması ölkəmizin təhlükəsizliyi üçün vacib faktordur. Son zamanlar Yaxın Şərqdə və Cənubi Qafqaz regionunda baş verən hadisələr, terrorçu qruplaşmaların daha aktiv hala gəlməsinə səbəb olub. Odur ki, Azərbaycan kimi sabit və güclü ölkələr üçün əlavə təhlükələr yaratmaq cəhdləri də gözlənilləndir. Dövlət qurumlarımız bu riskləri minimuma endirmək üçün ciddi təhlükəsizlik tədbirləri görürlər.

… Qayıdaq yazının sərlövhəsindəki “çoxistiqamətli təhlükəsizlik” ifadəsinə. Bəli, biz bu gün, sözün həqiqi mənasında, təhlükələr və təhdidlərlə üz-üzəyik.

**Əvvəla,** məğlub Ermənistanın hələ də sülh sazişini imzalamaqdan imtinası yeni silahlı əməliyyatların baş verə biləcəyindən xəbər verir.

**İkinci,** Emmanuel Makron başda olmaqla bir çox Avropa siyasətçiləri Cənubi Qafqazda yeni münaqişə ocağı yaratmaqdan ötrü dəridən-qabıqdan çıxırlar. Onlar bu hoqqalarına “Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması” adı versələr də, nəticədə zərər çəkən Qafqaz ölkələri və xalqları olacaq.

**Üçüncü,** Azərbaycanın yaratdığı yeni reallıqları həzm edə bilməyən siyasi dairələr bizim üçün hələ də təhdidedici olaraq qalırlar.

**Dördüncü,** Prezident İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzunun durmadan artması, xüsusən, ötən ilin noyabrında dünyanın 80-dən çox dövlət və hökumət başçısının Bakıda keçirilən COP29 iqlim tədbirinə qatılması, eləcə də, BMT Baş katibinin bir həftədə iki dəfə Bakıya səfər etməsi anti-Azərbaycan, anti-türk dairələrin ürəyinin başına od salıb. Həmin od “sönüb kül olunca” Azərbaycana qarşı təhlükə qalacaq.

**Beşinci,** beynəlxalq aləmdə ayaq açıb yeriyən kiberhücumlara qarşı yaradılmalı olan “kibertəhlükəsizlik tədbirləri” də günün reallıqları sırasındadır.

**Altıncı,** həm ölkəmizdəki, həm də beynəlxalq aləmdəki bank-maliyyə dələduzlarının yaratdığı təhlükələrin sayı gündən-günə artır. Daxili İşlər Nazirliyinin bu istiqamətdəki xəbərdarlıqlarını az qala hər gün eşidirik. Milli Qəhrəman Hökumə Əliyevanın ailəsinə verilmiş vəsaitlə bağlı baş verənlər hamıya dərs olmalıdır.

Yəni Azərbaycanın gündən-günə qüdrətlənməsi, dövlət başçımızın beynəlxalq aləmdə söz sahibinə çevrilməsi dünyanın müxtəlif ünvanlarındakı imperialist qüvvələri ciddi şəkildə narahat edir və onlar gah açıq, gah da gizli şəkildə ölkəmizin əleyhinə addımlar atırlar. Ona görə da xalqımız, xüsusən, ziyalılar ölkəmizin quru sərhədlərinin hələlik bağlı saxlanılmasını alqışlayır, dövlətin təhlükəsizlik məqsədiylə atdığı bütün addımları dəstəkləyirlər.

***İttifaq MİRZƏBƏYLİ***

**Sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir və əminəm ki, Azərbaycan vətəndaşları da bu məsələyə anlayışla yanaşırlar. Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni, vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün, bu, yeganə düzgün addımdır.**

***(Prezident İlham Əliyevin yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqindən)***




# USAID-in Gürcüstandakı gizlinləri ifşa edilir

**(əvvəli 1-ci səhifədə)**

USAID cinayətkar təşkilatdır və “onun ölməsinin vaxtıdır”. Bu sözləri İlon Mask özünün “X” profilində yazmışdı. Biznesmen iki USAID rəsmisinin Maskın rəhbərlik etdiyi Hökumətin Effektivliyi Departamentinin (DOGE) üzvlərinə agentliyin sistemlərinə giriş icazəsi verməkdən imtina etdikdən sonra işdən çıxarıldığı xəbərinə cavab olaraq belə reaksiya göstərdi. Görəsən, USAID başbilənləri dövlət başçısının nümayəndəsinin adamlarını niyə binaya daxil olmağa icazə vermədilər? Cavabı sadədir: bu qurumun rəhbərliyi o qədər özbaşına işləməyə və qərar qəbul etməyə alışıblar ki, zəruri söhbət aparılmasını belə qılıncla qarşılayırlar. Həm də belə reaksiya göstərmələrinin ciddi səbəbləri də var. Uzun illərdir amerikalı vergiödəyicisinin pullarını mənasız və təhlükəli layihələlərə xərcləməklə USAID nəinki “milli maraqların qoruyucusu” kimi özünü göstərməyə çalışdı, hətta ABŞ-ın dünyada imicinin korlanmasına ciddi əsaslar yaratdı.

USAID-in digər ölkələr üzərindən nələr çevirdiyini bütün dünya bilir. Qurum Cənubi Qafqazda da bu siyasətini yeritməyə çalışıb. Ancaq qurumun Gürcüstanda burnunu hər yerə soxmaq istəməsi ikrah hissi doğurur. Artıq heç kəsə sirr deyil ki, Gürcüstanda baş tutmayan inqilab ssenarisində də USAID dəridən-qabıqdan çıxıb, xüsusi rol oynayıb. Rəsmi Tbilisi də son açıqlamalarda bunu rəsmən təsdiqləyib. Məsələn, Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili özünün “X” profilində qeyd edib ki, “USAID Gürcüstan–ABŞ dostluğunu gücləndirmək əvəzinə, hələ də düzəldilməyən bəzi ciddi səhvlərə yol verib”.

Gürcüstan parlamentinin sədri vurğulayıb ki, şəxsən özü ABŞ Konqresini qəsdən edilmiş bu səhvləri araşdırmağa çağırıb, lakin heç bir nəticə əldə olunmayıb. Parlament sədri, xüsusilə, 2020-ci ildə keçirilən seçkilərdən sonra baş verən hadisələri xatırladaraq deyib ki, USAID tərəfindən maliyyələşdirilən ISFED adlı “QHT NDI” proqram təminatından istifadə edərək saxta nəticələr yayıb və seçkilərin saxtalaşdırıldığını iddia edib. Ancaq sonradan “Gürcü Arzusu-Demokratik Gürcüstan” Partiyası saxtakarlığı ifşa edib və ISFED də bunu etiraf edib. Cənab Papuaşvilili, həmçinin əlavə edib ki, USAID -in yerli nümayəndəsi Adam Şmidt ISFED məlumatlarının audit edildiyini və heç bir səhvin olmadığını deyərək həm Gürcüstan hökumətini, həm də xalqı aldadıb.

Bundan başqa, cənab Papuaşvili bildirib ki, Gürcüstanın qeyri-hökumət təşkilatları (QHT) 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyindən (USAID) 41 milyon dollardan çox vəsait alıb. “USAID siyasi korrupsiya vasitəsilə Gürcüstanda seçkilərə 41,7 milyon dollar xərcləyib. ABŞ və Gürcüstan əhalisinin nisbətinə görə hesabladıqda, bu, ABŞ-da seçkilərə xaricdən xərclənən 3,78 milyard dollar təşkil edərdi. Ölkələrin ÜDM-ni əsas götürsək, bu müqayisə daha təəccüblü olacaq”, - o Facebook səhifəsində yazıb. Parlamentin sədri Gürcüstanda seçkiləri müntəzəm olaraq pozmağa çalışan təşkilatlara on milyonlarla dolların necə ayrıldığına aydınlıq gətirilməsini tələb edib. “Başqa bir ölkədə seçkilərə 41,7 milyon dollar xərcləyib həmin ölkənin əhalisi qarşısında heç bir məsuliyyət hiss etməmək mümkün deyil”, - Ş.Papuaşvili bildirib.

Eyni zamanda, Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirib ki, Brüssel və Avropanın digər paytaxtlarından Gürcüstana xərclənən hər bir sent yoxlanılmalı və ictimaiyyətə açıqlanmalıdır. Cənab Papuaşvili parlamentin yaz sessiyasının ilk iclasında çıxışı zamanı deyib ki, ABŞ xarici yardımla bağlı şəffaflıq nümunəsi yaratdı, digər donorların fəaliyyətsizliyi qəbuledilməzdir. “ABŞ-ın yeni administrasiyası xarici yardım adı altında daxili siyasətə zərərli müdaxilələrin maliyyələşdirildiyini qəbul etdi. Bu fonda bəzi donorların öz QHT-lərini şəffaflıq barədə qanuna qarşı qaldırması artıq təəccüblü deyil”, - o qeyd edib.

ABŞ-ın indiki rəhbərliyi də USAID -in bu illər ərzində destruktiv fəaliyyət göstərdiyini anlayır. Hətta “yumşaq güc” kimi qələmə verilən USAID -in fəaliyyətinin dayandırılması Ağ evi narahat etmir. Dövlət katibi Mark Rubio “Fox News” telekanalına müsahibəsində bildirib ki, ABŞ prezidenti Donald Trampın administrasiyası USAID -in ləğvinin Çinin beynəlxalq təsir sferasında səylərinin artmasına səbəb olacağından qorxmur. Ağ ev sahibinin agentliyin ləğvinin Çinin xarici yardım proqramlarını maliyyələşdirmək səylərini gücləndirərək “boşluğu doldurmağa” cəhd etməsinə gətirib çıxara biləcəyini soruşduqda Mark Rubio “Xeyr” cavab verərək əlavə edib ki, “Onlar belə bir addım atmırlar”.

Eyni zamanda, ABŞ Dövlət katibi Çinin bu cür səylər göstərəcəyi təqdirdə ABŞ-la “rəqabətə girməli olacağı” fikrini ifadə edib. Onun sözlərinə görə, USAID faktiki olaraq “qlobal xeyriyyə fondu”na çevrilib: “Onlar vergi ödəyicilərinin pullarını götürür və milli maraqlara uyğun olub-olmamasından asılı olmayaraq qlobal xeyriyyəçilik kimi xərcləyirlər”. Dövlət katibinin sözlərinə görə, USAID çox vaxt “müəyyən bir ölkədə ABŞ federal hökumətinin səylərini baltalayır. Onlar daha geniş məsələlər üzrə işləməyə çalışdığımız ölkələrin hökumətlərini narahat edən proqramları dəstəkləyirlər. Onlar tamamilə cavabsızdırlar. Onlar, sadəcə olaraq ABŞ üçün işlədiklərini düşünmürlər”, - deyə dövlət katibi fikrini yekunlaşdırıb.




Göründüyü kimi, Prezident Tramp qara əməllərinə görə USAID-ə qarşı ciddi tədbirlər görmək əzmindədir. Demokratlar Partiyasının üzvləri arasında etiraz fırtınasına səbəb olmasına baxmayaraq Ağ evin sahibi USAID-i nəzarət altına götürür. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin yaydığı yazılı məlumatda da xüsusi olaraq vurğulanır ki, USAID proqramlarının əhəmiyyətli hissəsi Birləşmiş Ştatların əsas maraqlarına cavab vermir: “USAID Amerikanın xaricdəki maraqlarını məsuliyyətlə irəli sürmək kimi ilkin məqsədindən çoxdan uzaqlaşıb. İndi aydın olub ki, USAID-in maliyyələşdirməsinin əhəmiyyətli hissəsi Birləşmiş Ştatların əsas milli maraqları ilə bağlı deyil”.

ABŞ Prezidentinin mətbuat katibi Kerolayn Livit isə USAID-in bəzi proqramlarını təsvir etmək üçün daha sərt ifadələrə yer verib. Bazar ertəsi jurnalistlərə danışan xanım Livit qurumun kəskin etiraza səbəb olan bir neçə proqramını sadalayıb. Mətbuat katibi xüsusən Serbiyada irqi və digər müxtəlifliyi, bərabərliyi və inklüzivliyi genişləndirmək üçün 1,5 milyon dollara başa gələn proqramı, Kolumbiyada 47 min dollar məbləğində maliyyələşdirilən “transgender operası”nın istehsalını və Peruda transgender personajlarını əks etdirən komikslərin buraxılması üçün 32 min dollar ayrıldığını vurğulayıb. “Sizi bilmirəm, amma bir vergi ödəyicisi kimi mən pullarımın bu cür boş şeylərə (etik cəhətdən həmin sözü qeyd edə bilmirik-red.) xərclənməsini istəmirəm. Mən bilirəm ki, Amerika xalqı da bunu istəmir. Prezident Tramp İlon Maska məhz bununla məşğul olmağı tapşırıb. Federal hökumətdə saxtakarlığın, israfçılığın, səlahiyyətdən sui-istifadənin kökünü kəsmək üçün belə bir tapşırıq ona görə verilib”. Xanım Livitin sözlərinə görə, USAID son bir neçə il ərzində bədxərcliyə yol verib və səlahiyyətindən sui-istifadə edib. Mətbuat katibi deyib ki, təşkilatın işində “ağılsız prioritetləri” olub.

Daha sonra Ağ evin mətbuat xidməti məlumat yaydı ki, USAID “Əfqanıstanda misli görünməmiş tiryək becərilməsi və heroin istehsalını dəstəkləmək” üçün “yüz milyonlarla dollar” xərcləyib. Eyni zamanda, qurumun “Əl-Qaidə terror qruplaşması ilə əlaqəli olan Suriyadakı yaraqlılar üçün qida alınmasına “yüz minlərlə dollar” vəsait ayırması da vurğulanıb. Ağ evin press-relizində daha sonra yazılır: “USAID onilliklər ərzində vergi ödəyicilərinə cavabdeh olmayıb, ABŞ hökumətinin bu quruluşundakı bürokratların faktiki olaraq şəxsi layihələri ilə məşğul olub”.

Necə deyərlər, indiki hökumət də birmənalı şəkildə bildirir ki, USAID daha çox məqsədəuyğun olmayan istiqamətlərdə fəaliyyət göstərib. İndi, necə deyərlər, ilk növbədə amerikalı vergiödəyiciləri qarşısında hesab vermək vaxtıdır.

***S.ELAY***
***XQ***

# Qərbi Azərbaycana Qayıdış hərəkatının mədəni əsasları

**Milli Məclisin deputatı, parlamentin Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva Qərbi Azərbaycana qayıdışın müxtəlif sahələrdə olduğu kimi, mədəni əsaslarının da formalaşdırılması ilə bağlı AZƏRTAC-a verdiyi müsahibəni təqdim edirik.**

**– Günay xanım, bu yaxınlarda Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə və soyqırımı faktlarını etiraf etdiyi videosu yayımlandı. Bu haqda nə deyə bilərsiniz?**

– Qərbi Azərbaycanda yaşayan soydaşlarımız XX əsrdə etnik mənsubiyyətlərinə görə erməni vəhşilikləri nəticəsində mərhələli şəkildə deportasiyaya məruz qalaraq, öz dədə-baba yurdlarından dörd dəfə didərgin salınmışlar.

Bu torpaqlardakı mədəni irsimizin bir çox tarixi nümunələri də ermənilər tərəfindən qarət edilmiş, dağıdılmış və ya mənimsənilmiş, qədim toponimlərimiz çirkin erməni adları ilə əvəz olunmuşdur. Azərbaycanlıların bu torpaqların əzəli sakinləri olduqlarını sübut edən izləri, xalqımıza aid etnik nişanələri yox etmək üçün məqsədyönlü şəkildə kütləvi vandallıq aktları törədilmişdir. Torpaqlarımızın 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, Qərbi Azərbaycandakı mədəni irsimizin məhv edilməsi son bir əsrdə Ermənistanda dövlət siyasəti səviyyəsində gerçəkləşdirilmişdir.



Tarixdən yaxşı məlumdur ki, Türkmənçay müqaviləsi nəticəsində İrəvan xanlığı Rusiya imperiyasının tərkibinə daxil edildi və ermənilərin oraya köçürülməsinə başlanıldı. Bununla da tarixi hadisələrin gedişatında yeni bir mərhələ açıldı.

XIX əsrin sonlarında milli ideologiyaya çevrilən qatı erməni irqçiliyi bütün ətraf coğrafiyada yaşayan xalqlara, o cümlədən erməni xalqının özünə ciddi problemlər yaratdı. Osmanlı imperiyasının ərazilərində yaradılmış "Qnçaq", "Daşnaksütyun" və bu kimi digər partiya və hərəkatlar böyük imperiyaların maddi-mənəvi dəstəyini alaraq, erməni əhalisinin beynini zəhərləmiş, bu da acınacaqlı mənfi nəticələr doğurmuşdur. O vaxta qədər yüksək həyat səviyyəsində yüz illərlə sülh və rifah içərisində yaşayan erməni əhalisi öz dövlətinə kütləvi şəkildə xəyanət etdi. Yüz ildən artıq zaman keçməsinə baxmayaraq, milli-mənəvi məhdudiyyətdən doğan bu irqçiliyin nə dərəcədə yayıldığının canlı şahidiyik. Təsadüfi deyil ki, erməni irqçiliyini faşizmə gətirib çıxaran siyasi liderlər və yaxud xaricdəki erməni lobbisi bu ideologiyadan, ilk növbədə, öz şəxsi mənafeləri və siyasi maraqları üçün istifadə edirlər.

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın son günlərdə bir çox mətbuat orqanlarında yayımlanmış müsahibəsi erməni irqçi faşizminin, erməni nasizminin əyani təzahür formalarından biridir.

Bilirsiniz, ədalət gec də olsa, həmişə öz yerini tapır. Yalan, böhtan üzə çıxır. Ermənistanın vaxtilə birinci şəxsi olmuş Ter-Petrosyanın Qərbi azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini açıq şəkildə etiraf etməsi artıq Ermənistanın özü-özünü ifşa etməsi deməkdir. Bu açıqlama ilə Ermənistanın təcavüzkar siyasəti bir daha təsdiqlənir. Bu, yalnız Ermənistanın dövlət idarəetməsindəki keçmiş bir liderin deyil, ümumilikdə erməni siyasətinin, onun ideologiyasının təzahürüdür.

Ter-Petrosyanın həmin açıqlaması erməni millətçiliyinin nə qədər dərinləşdiyini göstərir və bu, həm regional, həm də qlobal miqyasda mənfi nəticələrə səbəb ola bilər. Ona görə də düşünürəm ki, Ermənistan Azərbaycan ilə münasibətlərini normallaşdırmaq və bunun davamı olaraq hansısa qlobal layihələrdə iştirak etmək istəyirsə, onda öz keçmişləri ilə bağlı səmimi olmalı, törətdikləri etnik təmizləmə və cinayətləri rəsmən tanımalıdırlar.

Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında söylədiyi kimi, adətən qədim şəhərlərin tarixi abidələri, tarixi mərkəzləri olur. Necə ki, Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qəbələdə və digər qədim şəhərlərdə var. Bəs niyə İrəvanda tarixi mərkəz yoxdur? Çünki o mərkəzlər Azərbaycan xalqının tarixi mirası idi və ermənilər bu mirası məhv ediblər. Şəhərsalma adı altında bütün tarixi abidələrimiz, o cümlədən İrəvan qalası və Sərdar xanın sarayı da dağıdılıb, məhv edilib.

İrəvanda salamat qalan və yeganə Azərbaycan abidəsi olan Göy Məscidi Ermənistan rəsmiləri xaricdən gələn qonaqlara “İran məscidi” kimi təqdim edirlər. Hətta Ermənistan bu məscidin İranın tarixi abidəsi kimi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinə çalışırdı. Maraqlıdır, necə olur ki, 1799-cu ildə İrəvan xanı Hüseynəli xan Qacar tərəfindən tikdirilən və Azərbaycan memarlığının incilərindən biri olan göy türklərin “Göy məscidi” başqasının abidəsi kimi təqdim edilir?

**– Qərbi Azərbaycana mənəvi qayıdış siyasəti ilə bağlı nə deyə bilərsiniz?**

– Bu, tarix faktlara əsaslanır. Coğrafi mövqe, tarixi miqrasiya reallıqları, toponimika və bir çox digər əlamətlər Azərbaycanın bu yerlərə, onun tarixi və mədəni irsinə haqqını aşkar şəkildə təsdiqləyir. Prezident İlham Əliyevin dediyi kimi, bizim işimiz bu tarix üzərində qurulmalıdır. Necə ki, Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. Canımızla, qanımızla öz torpaqlarımızı geri qaytardıq. Eləcə də Qərbi Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün çalışmalıyıq və çalışırıq. Prezidentin bu sahədəki yorulmaz fəaliyyəti göz qabağındadır.

Əlimizdə əsasımız, tarixi sübutlarımız var ki, həqiqətən də Qərbi Azərbaycan bizim dədə-baba torpağımızdır və azərbaycanlılar oradan dəfələrlə deportasiya olunub, qəddarcasına etnik təmizləmə siyasətinə məruz qalıblar. Biz bu materialları bir çox dünya dillərinə tərcümə etməli, kitablar hazırlayıb nəşr etməliyik. Nüfuzlu elmi institutlar, universitetlər, beyin mərkəzləri ilə birgə tədbirlər, konfranslar, simpoziumlar keçirməliyik. Siyasətçilərlə, siyasi ekspertlərlə, beynəlxalq səviyyəli hüquqşünaslarla bu məsələləri müzakirə etməliyik. İnsanların məruz qaldıqları zülmü, qaçqınlıq və didərginlik həyatını real şəraitdə təqdim etməliyik. Bu sahədə xeyli iş görülüb, ancaq problemin vacibliyi və mürəkkəbliyi müqabilində bu, azdır.

Biz yalnız öz daxilimizdə deyil, dünya miqyasında haqqımızı daha artıq enerji və qətiyyətlə müdafiə etməliyik. Yəni, özümüz deyib, özümüz eşitməməliyik. Başımıza gətirilən faciələr və ədalətsizliklər beynəlxalq səviyyədə, müxtəlif dillərdə və ölkələrdə eşidilməlidir. Bu məqsədlə hər birimiz həmin məsələlərin geniş təbliği və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində, dediyim kimi, daha fəal və sistemli iş aparmalıyıq.

2021-ci ildə Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən sərəncam imzalandı. Mən o zaman Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri idim. Həmin il Türk dünyasının görkəmli şəxsiyyətlərinin – Yunus Əmrənin, Jambul Jabayevin və Aşıq Ələsgərin yer aldığı “Üç ozan bir arada” poçt markasını çap etdirdik və o, dövriyyəyə buraxıldı, üzv ölkələrə göndərildi. Biz bir layihə çərçivəsində Türk dünyasının böyük el sənətkarlarını bir araya gətirdik. Digər tərəfdən də Qərbi Azərbaycanın irsinin tarixi Göyçə mahalının yetirməsi Aşıq Ələsgərin timsalında daha geniş coğrafiyada tanıdılmasına çalışdıq.

Artıq Qərbi Azərbaycan torpaqlarına mənəvi qayıdışın təməli qoyulub. Prezidentin imzaladığı sərəncam əsasında Bakıda Aşıq Ələsgərin abidəsi ucaldılıb. Dövlətimizin başçısı ötən il sentyabrın 30-da abidənin açılışındakı çıxışında bildirdi ki, gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik. Biz 30 il Şuşa, bütün Qarabağ ilə bağlı bu cür arzumuzu bildirirdik. Sonu nə oldu? Arzumuz yerinə yetdi.

Ötən il dekabrın 5-də Qərbi Azərbaycan İcmasının “Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda II beynəlxalq konfransda iştirak etdim. Tədbirə 51 ölkədən 100-dən çox nümayəndə qatılmışdı. Dünyanın müxtəlif ölkələrindən gələn mütəxəssislər, siyasət və elm adamları Qərbi Azərbaycanın tarixindən, maddi və mənəvi irsindən danışdılar. Konfransda babalarımızın yadigarları - İrəvan xanı Sərdar xanın nəslinin nümayəndələri də iştirak etdilər. O insanlar canlı tarixdirlər, canlı sübutdurlar. Bu cür tədbirlər tarixi həqiqətlərimizi beynəlxalq auditoriya ilə paylaşmaq baxımından, əlbəttə, əhəmiyyət daşıyır.

**– Qərbi Azərbaycanın maddi-mənəvi irsinin qorunması sahəsində nə kimi işlər aparıla bilər?**

– Qərbi Azərbaycanın mədəni irsi bizim milli kimliyimizin, tarixi yaddaşımızın, adət-ənənələrimizin, gələcək nəsillərə miras qoyacağımız dəyərlərimizin ayrılmaz parçasıdır. Düşünürəm ki, Qərbi Azərbaycana qayıdışın müxtəlif sahələrdə olduğu kimi, mədəni əsaslarının da formalaşdırılmasına çalışmalıyıq.

İrəvanda Azərbaycanın tarixi-mədəni irs nümunələri, dini abidələri, o cümlədən Sərdar (Abbas Mirzə), Dəmirbulaq, Təpəbaşı, Rəcəb Paşa, Hacı Novruzəli bəy, Hacı Cəfər bəy, Xudabəndə və digər məscidlərimiz, İrəvan qalası, Sərdar Xan sarayı, Aşıq Ələsgərin Göyçə mahalının Ağkilsə kəndindəki qəbirüstü abidəsi və digərləri ermənilər tərəfindən tamamilə dağıdılıb. Düşünürəm ki, həmin abidələrlə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması bizim üçün prioritet məsələyə çevrilməlidir. Məsələn, müasir texnologiyaların imkanlarından faydalanaraq virtual muzeylər yarada bilərik.

Digər tərəfdən, biz bu sahədə çalışan beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməliyik. Çünki burada söhbət maddi-mənəvi irsin dağıdılmasından, eləcə də kollektiv yaddaşın məhv edilməsindən gedir.

Yenə də bu sahədə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda çalışdığım dövrdən təcrübəmi bölüşərək deyə bilərəm ki, 2022-2023-cü illərdə “Yıldız Sarayı Foto Kolleksiyasında XIX Əsr Türk Dünyasının Mədəni İrsi” adlı genişmiqyaslı layihə gerçəkləşdirdik. Osmanlı dövlətinin Yıldız kolleksiyası dünyanın ən zəngin fotoarxivlərindən biridir. Layihə çərçivəsində Yıldız Sarayından Türk dünyasının qədim şəhərlərinə - Səmərqənd, Buxara, Kokand, Xivə, Türküstan, İstanbul, Konya, Aşqabad, Bakı və həmçinin İrəvana aid fotoşəkilləri bir kitabda toplayaraq beynəlxalq ictimaiyyətə təqdim etdik.

2023-cü ilin əvvəlində İstanbulda Milli Saraylar Dolmabağça İncəsənət Qalereyasında həmin kitabda yer alan fotoşəkillərdən ibarət möhtəşəm sərgi təşkil etdik. Daha sonra bu sərgini 2023-cü ilin noyabrında Türk Dövlətləri Təşkilatının 10-cu yubiley Zirvəsi çərçivəsində Astanada Türk dövlətlərinin xarici işlər nazirlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin və digər rəsmilərin iştirakı ilə keçirdik. Bunları nə üçün deyirəm? Çünki bu cür tədbirlər irsimizin üzə çıxarılması və təbliği, eyni zamanda, tarixi faktların beynəlxalq aləmdə tanıdılması deməkdir. Bir deputat bir azərbaycanlı kimi bundan sonra da maddi-mənəvi irsimizin qorunmasına, təbliğinə töhfə vermək naminə hər zaman əlimdən gələni etməyə hazıram.

**– Bu il yanvarın 7-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibə verdi, Ermənistan və Qərbi Azərbaycan məsələlərinə toxundu. Bəs siz bu məsələlərin gələcəyini necə görürsünüz?**

– Gələcəyə böyük ümid və inamla baxıram. Prezident İlham Əliyev müsahibəsində bildirdi ki, Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. İkinci variant yoxdur. Ermənistan baş naziri yaxşı olardı ki, Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etsin, onların tələblərini dinləsin. Bu, sülh üçün çox vacib addım olardı. Ermənistan sübut etməlidir ki, həqiqətən də Azərbaycan ilə sülh şəraitində yaşamağa hazırdır. Yəni, gələcəkdə nə vaxtsa Azərbaycana qarşı heç bir ərazi iddiası olmayacaq. Ermənistan bunu həm konstitusiyasında, həm bəyannamələrində, həm də qonşularla dinc münasibətlərində göstərməlidir.

Demoqrafik durum

# Qoy toylar azalmasın!

## *Ailələr isə möhkəm və çoxuşaqlı olsun*

**Azərbaycanda demoqrafik dəyişikliklər baş verir. Hər il doğulanların sayı azalır. Doğuş səviyyəsinin aşağı düşməsi isə sonradan əmək qabiliyyətli əhalinin sayının azalmasına gətirib çıxarır ki, bu da öz növbəsində yaşlıların sayını artırır, iqtisadi məhsuldarlığa təsir edir, sosial dəstək sistemlərinin yükünü artırır.**

**Təqaüdçülərin əmək qabiliyyətli işçilərə nisbətən artması isə pensiya və səhiyyə xərclərinin çoxalmasına səbəb olur və dövlət maliyyəsinə təzyiq göstərir. Demoqrafiya üzrə mütəxəssis, coğrafiya elmlər doktoru, professor Zakir Eminovla söhbətimiz məhz bu barədədir. Sözünün əvvəlində professor dedi:**

– Ölkəmizdə təbii artım azalır. Buna doğulan uşaqların sayının aşağı düşməsi, ölənlərin sayının isə artması təsir edir. Statistik məllumatlardan məlum olur ki, 2022-ci ildə Azərbaycanda 122 min 846 doğum, 60 min 810 ölüm halı qeydə alınıb. Təbii artım 62 min 36 nəfər təşkil edib. 2023-cü ildə 112 min 620 körpə doğulub, 60 min 150 ölüm halı qeydə alınıb, təbii artım 52 min 470 nəfər olub. Bir ildə təbii artımda 7 min 680 nəfər azalma var. Son 25 ildə bu sahədə ən aşağı göstərici 2021-ci ildə qeydə alınıb. Bu rəqəm 35 min 406 nəfər olub.

**– Nikaha daxilolmanın orta yaş həddi artır. Bu, demoqrafik göstəricilərin dəyişməsində əhəmiyyətli rol oynayır. Səbəb nədir?**



– Əhalinin sayı daim dəyişdiyinə görə onun iqtisadi, mədəni, sosial tələbatı, demoqrafik göstəriciləri, məskunlaşma səviyyəsi də dəyişikliyə məruz qalır. Bu gün informasiya çoxluğu, çoxsahəli, uzunmüddətli təhsil sisteminin mövcud olması və ali təhsilin vacibliyi, onun geniş əhali təbəqəsi arasında yayılması nikaha daxilolma yaşının yuxarı qalxmasına səbəb olur. Çox vaxt ali təhsil 22–25 yaşlarında başa çatır. Oğlan və qızlar təhsil aldıqları müddətdə valieynlərinin himayəsində yaşayırlar.

Belə bir şəraitdə işi-gücü, evi olmayan gənclərin ailə qurması da çətinləşir. Onlar ali məktəbi bitirdikdən sonra işə düzəlmək, evlənmək üçün lazım olan şəraiti yaratmaq istəyirlər. Əsasən də oğlan uşaqları bu sahədə daha mühafizəkar olurlar. Ev almaq, yaşamaq üçün normal maaşlı işlə təmin olunmaq kimi məqamları düşünürlər. Beləliklə, oğlan və qızlar maddi cəhətdən müstəqil olduqdan sonra ailə qurmağa üstünlük verirlər. Başa düşürlər ki, müəyyən stabil işi, evi olmadan ailə qurmaq sonradan onlar üçün problem yarada bilər. Nəticədə evlilik yaşı artır.

**– Gənclər arasında karyera qurmaq arzusunda olanlar az deyil. Onlar bu səbəbdən gec evlənməyə üstünlük verirlər. Şübhəsiz, bu ciddi demoqrafik problemdir. Aydındır ki, digər səbəblər də var. Bu barədə nə deyərdiniz?**

– İşləyən gənclər iqtisadi, sosial-mədəni cəhətdən daha müstəqil olurlar. Onlar sərbəst qərarlar qəbul edir, evlənməkdənsə karyera qurmaq, daha yaxşı yaşamaq istəyirlər. Düşünürlər ki, ali təhsil alıb, yaxşı iş yerlərində çalışdıqları üçün mütləq ayrı evləri olmalıdır. Böyük ailələrdə yaşamaq istəmirlər. Bunu sanki bir dəyər kimi qəbul edirlər. Bu halda əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi nikaha daxilolmaya mənfi təsir göstərən amil kimi çıxış edir. Ən yaxşı halda bu evlilik 25–30 yaş aralığında baş tutur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə qeydə alınmış 61 min 939 nikahdan bəyin yaş qrupuna əsasən 41 min 502-si 25–34 yaş aralığında ailə quranlardır. Qadınlarda isə bu göstərici 23–27 yaş arasındadır.

Nikaha daxilolma yaşına təsir edən digər amillər də var. Məsələn, kişilərin evlənmək istəməmələrinin əsas səbəblərindən biri qadın və ailə üçün məsuliyyət daşımaq istəməmələridir. Vətəndaş nikahında bu məsuliyyət daha aşağıdır. Bu halda kişi psixoloji və hüquqi cəhətdən qadın üçün daha az məsuliyyət daşıyır. Məsələn, vətəndaş nikahında kişi ayrıldığı təqdirdə əldə etdiyi əmlakı bölüşmək məcburiyyətində qalmır. Evlilik isə həm də kişinin maddi yükünü artırır. Bu səbəbdən də onlar nikaha girməkdənsə, vətəndaş nikahına üstünlük verirlər. Kişinin birlikdə yaşadığı qadınla evlənəndə isə yaşı çox olur.

Gənclərin gec ailə qurmalarının səbəbləri arasında psixoloji amillərin də rolu var. Bu gün sosial şəbəkələrdə ailədaxili şiddət, zorakılıq halları barədə kifayət qədər məlumatlar var. Buraya boşanma, alimentlər, evliliklərdəki neqativ nümunələr, maddi sıxıntılar, işsizlik, dolanışığın baha olmasını da daxil etsək, mənzərə tam aydın olar. Gənclər tanıdıqları ailələri xoşbəxt görə bilmirsə, o zaman onlar ailə qurmaqdan qorxurlar. Vaxt isə gedir.

Beləliklə, statistika onu göstərir ki, təkcə ölkəmizdə deyil, qloballaşan bütün dünyada gənclər evliliyi gecikdirməyə, uşaq sahibi olmamağa (ən yaxşı halda 1-2 uşaq) və tək yaşamağa üstünlük verirlər. Əksər gənclər ailə qurmaq əvəzinə şəhərlərə köç edib, karyeralarına diqqət yetirib, sevdiyi qadın ilə eyni evdə nikahsız yaşamağa üstünlük verirlər.

Qeyd edək ki, ümumi nikaha daxil olan kişilərdə və qadınlarda orta yaşın ən yüksək həddi 2020-ci ildə qeydə alınıb və müvafiq olaraq 30 və 25,2 yaş olub. 2022-ci illərdə nikaha daxil olan kişilərin orta yaşı müvafiq olaraq 27,4 və 29,8, qadınların isə 24,3 və 24,9 təşkil edib. Hazırda bu rəqəmin son həddi kişilərdə 30-a, qadınlarda isə 26 yaşa yaxınlaşıb.

**– Boşanma cəmiyyətdə gedən mənfi və arzuolunmaz proseslərdən biridir. Lakin cəmiyyətin sosial-iqtisadi inkişafı, əhalinin iqtisadi fəallığının artması, qadınların rolunun genişlənməsi boşanma hallarını çoxaldır.**

– Qadınların məşğulluğu müəyyən biliklər sisteminin əldə edilməsinə, davranış normalarına yiyələnməsinə səbəb olur. Digər tərəfdən qadınların təsərrüfat sahələrində məşğulluğu maddi müstəqilliyini təmin edir. İqtisadi müstəqillik qadınların digər sahələrdə də müstəqil olmasına şərait yaradır. Məşğulluq prosesində onların maraqları genişlənir, mədəni səviyyəsi yüksəlir, siyasi fəallığı, ictimai əxlaqı dəyişir, tanışlıq dairəsi genişlənr. Bu, onlara ətrafda və kollektivdə olan insanların həyatını müqayisə etməyə imkan verir.

İqtisadi cəhətdən təmin olunmuş qadınlar arasında sərbəst yaşamaq istəyənlərin sayı artır. Onlar boşanmağa üstünlük verirlər. Belə ki, qadın öz maddi ehtiyaclarını ödəyə bilirsə və evliliklə bağlı tələbatları təmin edilmirsə, boşanmaq qərarını maliyyə baxımdan həyat yoldaşından asılı olan qadınlardan daha tez verir.

Məişət problemləri də boşanmada rol oynayır. Qadınlar işdən sonra məişət işləri ilə də məşğul olurlar. Ev işlərinə daha çox vaxt sərf edirlər. Asudə vaxtları çox az qalır. Həyatın, ailə münasibətlərinin, təsərrüfatda məşğulluğun bütün sahələrində özlərini kişilərlə eyni hüquqda hiss edən qadınlar belə vəziyyəti qəbul etmək istəmirlər. Bundan sonra problemlər bulaq kimi qaynayır. Kimsə bir-birinə güzəştə getmək istəmir. Bütün bunlardan sonra ailədə etibar, inam, güvən qalmır və ailə olmaqdan çıxırlar. Bu halda boşanmaqdan başqa çarə qalmır.

Erkən və gecikmiş evliliklər də ailələrin dağılmasında əsas rol oynayır. Belə ki, erkən yaşda ailə quran şəxslər uşaqlıq dövründən birbaşa ailə münasibətlərinə daxil olduqda bu məsuliyyəti çox vaxt daşıya bilmirlər. Eyni zamanda, 30 yaşdan yuxarı evliliklərdə də boşanma ehtimalı olduqca yüksəkdir. Belə ki, insanlar həmin yaş dövrünə qədər adət etdikləri həyat tərzini bir anda dəyişməli olurlar. Bu isə olduqca çətin olduğundan, ailə münasibətlərinə öz neqativ təsirini göstərir.

Ailədaxili zorakılıq boşanmanın başqa bir səbəbidir. Yuxarıda qeyd olunan səbəblər nəticəsində boşanmaların da sayı artır. Əgər 2022-ci ildə 61 min 939 nikah, 15 min 983 boşanma qeydə alınmışdırsa, 2023-cü ildə 54 min 200 nikah, 21 min 688 boşanma qeydə alınıb. Rəqəmlərdən göründüyü kimi bir ildə nikahda azalma 7 min 739 olub. Boşanmalar isə əksinə, artıb. Bu rəqəm 5 min 705 olub. 2024-cü ilin yanvar–sentyabr ayları ərzində 36 min 651 nikah və 15 min 964 boşanma halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,1-dən 4,8-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.

Göründüyü kimi, insanlar mədəni-psixoloji dəyişiklər nəticəsində ailə institutuna əvvəlki kimi yanaşmırlar. Bu da ailələrdə uşaqların sayının kəskin azalması ilə özünü göstərir.

**– Demoqrafik böhranın iqtisadiyyat, sosial sahə və bütövlükdə cəmiyyət üçün ciddi nəticələri var. Bu barədə nə deyərdiniz?**

– Birincisi, demoqrafik problem iqtisadi artıma təsir edir. Doğuş səviyyəsinin aşağı, ölüm səviyyəsinin yüksək olması əmək qabiliyyətli əhalinin sayının azalmasına səbəb olur. Bu, əmək məhsuldarlığının və iqtisadi artımın azalmasına səbəb olur. Daha az işçi qüvvəsi ölkə iqtisadiyyatına töhfə verə biləcək daha az insan deməkdir.

İkincisi, yaşlı əhalinin sayı artır. Doğuşun azalması və ömür uzunluğunun artması əhalinin qocalmasına səbəb olur. Bu o deməkdir ki, yaşlı əhalinin ümumi əhali üzrə xüsusi çəkisi artır. Məsələn, 2019-cu ildə 60-65 yaş qrupu əhalinin ümumi sayında 4,7 faiz təşkil edirdisə, 2024-cü ildə bu göstərici 5, 8 faizə yüksəlib. 65-69 yaş qrupunda bu göstərici 2,8 və 4,2, 70 yaşdan yuxarı isə 4 və 4,9 faiz təşkil edib. Yaşlı insanlar isə daha çox sağlamlıq və sosial dəstəyə ehtiyac duyurlar ki, bu da dövlət üçün əlavə maliyyə və sosial yük yarada bilər.

Üçüncüsü, əmək qabiliyyətli əhalinin sayının azalması pensiya sistemində problemlər yaradır. Daha az adamın işləməsi pensiya fonduna daha az töhfə deməkdir ki, bu da pensiyaların ödənilməsi üçün vəsait çatışmazlığına səbəb olur. Bu, pensiya sisteminin davamlılığına təhlükə yaratmaqla yanaşı, onun təşkili və maliyyələşdirilməsində dəyişikliklər tələb edir.

Dördüncüsü, əhalinin təbii artımı ölkənin demoqrafik strukturunun dəyişməsinə səbəb olur. Yaşlı əhalinin xüsusi çəkisinin artması və gənclərin sayının azalması əhalinin yaş strukturunda uyğunsuzluq yaradır. Bu, əmək bazarı, təhsil və səhiyyə də daxil olmaqla həyatın müxtəlif sahələrinə təsir göstərir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Güzəştli kredit özəl sektoru irəli aparır

**Sahibkarlığın İnkişafı Fondunun (SİF) 2024-cü ildə güzəştli kreditlə təmin etdiyi sahibkarlıq subyektlərinin sayı 5 min 722-yə (2023-cü illə müqayisədə 74,7 faiz çox) çatıb. Verilən kreditin məbləği isə 28 faiz yüksələrək 248,1 milyon manat təşkil edib.**

Hesabat ilində SİF-in vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə sənaye, kənd təsərrüfatı, logistika, anbar komplekslərinin yaradılması, turizm, balıqçılıq və akvakultura, kütləvi informasiya vasitələrinin inkişafı, tibb, təhsil və xidmət layihələri prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Fondun verdiyi ümumi güzəştli kredit məbləğinin 53,3 faizi kənd təsərrüfatı, 38,1 faizi sənaye məhsullarının istehsalı və emalı (o cümlədən, aqrar emal), 6,1 faizi xidmət, 2,1 faizi turizm və 0,4 faizi isə balıqçılıq sahələrinə yönəldilib.

Fondun məlumatına görə, SİF-in 2024-cü ildə güzəştli kredit ilə gerçəkləşdirdiyi layihələrin 94,7 faizi, verilmiş güzəştli kredit məbləğinin isə 72 faizi və ya 179 milyon manatı regionların payına düşüb.

Məlumata görə, son illərdə güzəştli kreditlər regionlarda sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi dinamikanın artmasına böyük töhfə verib. Bundan başqa, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlığının və inkişafının reallaşdırılması üçün onların güzəştli maliyyə resurslarına çıxışı mühüm önəm daşıyıb. Dövlətin bu sahədə gerçəkləşdirdiyi dəstək mexanizmləri belə sahibkarlar üçün əlverişli maliyyələşmə imkanları yaradıb və onların biznes fəaliyyətlərinin genişləndirməsini şərtləndirib. Xatırladaq ki, hesabat ili ərzində fondun maliyyələşdirdiyi layihələrin 99,8 faizi, ayrılan güzəştli kredit məbləğinin isə 93,4 faizi məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb.

Yeri gəlmişkən, burada bir məqamı da xatırladaq. Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlığın inkişafı diqqətdə saxlanılıb. Bu ərazilərdə özəl sektorun tərəqqisi məqsədilə infrastrukturun qurulmasına xüsusi önəm verilir. Belə ki, işğaldan azad olunan torpaqlarda investisiya mühitinin qurulması üçün növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. Qarabağ və Şərqi Zəngəzur elektrik enerjisi ilə tam təmin olunub. Bu iqtisadi rayonları ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmaqla, ölkənin digər şəhər və rayonlarının yol infrastukturu ilə birləşdirilib.




Region üçün xüsusi əhəmiyyət kəsb edən Tərtər–Çaylı–Suqovuşan –Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi artıq başa çatdırılıb. Digər avtomobil yollarının tikinti və bərpasının 2026-cı ilin sonunadək başa çatdırılması nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin gələn ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb.

Belə bir şəraitdə, əlbəttə ki, iş adamlarının fəaliyyətində səmərəlik də yüksəlib. Sahibkarların maliyyə vəziyyətinin yaxşılaşdırılması da unudulmayıb. Məsələn, sözügedən fond tərəfindən 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərindəki sahibkarların zəmanət – subsidiya mexanizminə müraciətləri əsasında 12 layihə üzrə 23,4 milyon manat kreditə 19,2 milyon manat dövlət zəmanəti verilib.

Məlumata görə, bu kreditlər üzrə 6,2 milyon manat həcmində subsidiyanın verilməsi təsdiqlənib. Fond tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edib. Sözügedən layihələr Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalının sosial-iqtisadi, mədəni inkişafına əhəmiyyətli təsir göstərib.

Bununla yanaşı, sözügedən mexanizmə müraciətlərin operativ qəbul edilməsi məqsədilə "Elektron kredit və zəmanət" informasiya sistemi sahibkarların istifadəsinə verilib. Bununla da onlara heç bir kredit təşkilatına getmədən elektron informasiya sistemi vasitəsilə müraciətlərini ünvanlamaq imkanı yaradılıb.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Ötən il ərzində bu ərazilərdə icra olunan 3 layihə üzrə fonddan, ümumilikdə, 8,1 milyon manat güzəştli kredit əldə olunub.

Ötən il işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın bərpa olunması və bu ərazilərdə investisiya qoyuluşlarının sürətlənməsinə dəstək diqqət mərkəzində saxlanılıb. Belə ki, fevral ayından etibarən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90 faizədək hissəsinə dövlət zəmanətinin verilməsinə başlanılıb. Bununla yanaşı, həmin kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi ilə 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılması və kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddətinin tətbiq edilməsi qərara alınıb.

### *EKSPERT RƏYİ*

**Günay QULİYEVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri**



Sahibkarlar üçün iqtisadi baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymaq çox səmərəlidir. Təkcə ona görə yox ki, orada qurulan infrastruktur müasir dövrün tələblərinə cavab verməklə ən müasir texnologiyalar vasitəsilə həyata keçirilir, həm də dövlət həmin ərazilərdə sahibkarlıq mühitinin canlanması üçün kifayət qədər güclü iqtisadi stimullardan istifadə edir. Belə ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli Qanununa əsasən, Vergi Məcəlləsinə yeni "XIX fəsil. İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri" əlavə olunub.

Əlavə olunmuş müddəalar həmin ərazilərdə sahibkarlıq fəaliyyəti üçün nəzərdə tutulmuş güzəştləri əhatə edir. Bu güzəştlərə əsasən, işğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar. Bu isə biznes subyektinin əsas vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması deməkdir. Digər əsas müddəa həmin ərazilərin rezidenti olan hüquqi şəxslərin səhmdarlarını (payçılarını) dividend gəlirlərinə görə 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilməsidir.

Əlavə olaraq, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan (qurum) tərəfindən təsdiqlənən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilir. Digər tərəfdən geniş turizm potensialına malik həmin ərazilərə turist axınını stimullaşdırmaq məqsədilə ora səfər edən fiziki şəxslər mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödədikləri ƏDV-nin 30 faizi, nağd qaydada ödədikləri ƏDV-nin isə 5 faizini geri ala bilərlər.

---

# Həsən Əliyev küçəsi "Koroğlu" metrostansiyasına çatacaq

## *Yeni yol paytaxtın mərkəzinə rahatlıq gətirəcək*



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumata əsasən, Bakının Akademik Həsən Əliyev küçəsi – "Koroğlu" metrostansiyası avtomobil yolunun Akademik Həsən Əliyev küçəsi – Müzəffər Nərimanov küçəsinədək olan hissəsinin tikintisinə başlanılıb. Yeni yolun Ziya Bünyadov və Heydər Əliyev prospektlərinə paralel layihələndirilərək inşa edilməsi planlaşdırılıb.**

Avtomobil yolunun Akademik Həsən Əliyev küçəsi – Müzəffər Nərimanov küçəsinədək hissəsi 6 hərəkət zolaqlı olmaqla uzunluğu 3,9 kilometr təşkil edəcək. Layihəyə əsasən, avtomobil yolunda ümumi uzunluğu 2210 metr olan 4 tunel və ümumi uzunluğu 112 metr olan 3 yeraltı piyada keçidi tikiləcək.

Yeni yolun layihəsi Xəlil Rza Ulutürk küçəsi ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsindən başlayaraq "Ulduz" metrostansiyasının yaxınlığından keçir və Ələsgər Qayıbov küçəsindən 1240 metrlik tunel vasitəsilə mövcud metro və dəmir yolu xətlərinin altından Əliyar Əliyev küçəsinədək uzanır.

Layihə çərçivəsində "Ulduz" metrostansiyasından Ələsgər Qayıbov küçəsi istiqamətində, Bakmil metrostansiyası yaxınlığında və Əliyar Əliyev küçələrində mobilizasiya-demobilizasiya işləri yerinə yetirilib, tikinti altına düşən maneələrin sökülməsi, kommunikasiya xətlərinin köçürülməsi, müəyyən hissələrdə yararsız qruntun qazılaraq kənarlaşdırılması və rekultivasiya işləri, həmçinin zəruri ərazilərdə dəmir-beton svayların vurulması yerinə yetirilir, layihənin 3-cü kilometrlik hissəsində yeralti piyada keçidi inşa edilir.

Layihəyə uyğun olaraq Aşıq Molla Cümə və Zaur Nudirəliyev küçələrinin kəsişməsindəki dairə ilə Əhməd Rəcəbli dairəsi arasında da tikinti işlərinə start verilib. Bununla əlaqədar sözügedən ərazidə avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılıb.

Artıq tikinti altına düşən yaşayış və qeyri-yaşayış sahələrinin sahiblərinə qanunvericilikdə nəzərdə tutulmiş məbləğdə təzminat ödənilməklə söküntü işlərinə də başlanılıb. Yeni inşa edilən yolboyu tikinti altına düşən digər maneələrin (yaşayış, qeyri-yaşayış və torpaq sahələri) qiymətləndirməsi işləri həyata keçirilib və sənədləri hazırlanaraq təzminat ödənilməsi üçün aidiyyəti üzrə təqdim edilib.

Dövlət əhəmiyyətli yeni infrastruktur layihəsinin icrası zamanı ətraf mühitə və yaşıllıqlara təsirlərin maksimum dərəcədə azaldılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birlikdə monitorinqlər aparılır, movcud vəziyyət qiymətləndirilir.

Mütəxəssislərlə birgə həyata keçirilən fəaliyyət nəticəsində yaşıllıqlara dəyən ziyanın minimuma endirilməsi, uyğun ərazilərə yaşıllıqların köçürülməsi, təbiətə dəyən ziyanın bərpa dəyərinin ödənilməsi və əvvəlki həcmindən daha çox sayda yeni yaşıllıq zolaqlarının salınması üçün plan-proqram işlənib hazırlanır.

---

**Media Təhlil Mərkəzinin Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi məlumata əsasən apardığı təhlil göstərir ki, 2021-ci il istisna olmaqla son 5 ildə əsas kapitala yönəldilən investisiyaların həcmi hər il artıb. Məsələn, keçən il ölkənin iqtisadi və sosial sahələrinin inkişafı məqsədilə bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən investisiyaların həcmi 5,6 faiz və ya 1 milyard 138,5 milyon manat artaraq 21 milyard 435 milyon manat təşkil edib.**

# Sosial-iqtisadi inkişafa yatırım ilbəil artır

## *Ötən il bu rəqəm 21,4 milyard manat olub*

MTM bildirir ki, 2024-cü ildə əsas kapitala yönəldilən investisiyaların 61,1 faizi (13 milyard 97 milyon manat) dövlət, 38,9 faizi (8 milyard 338 milyon manat) isə qeyri-dövlət sektoru tərəfindən yatırılıb. Hesabat dövründə daxili investisiyaların həcmi son 5 ildə qeydə alınan ən yüksək göstərici olub. Belə ki, sözügedən ildə əsas kapitala yönəldilən daxili investisiyaların həcmi 18 milyard 146 milyon manat (2023-cü illə müqayisədə 10,6 faiz və ya 1 milyard 734 milyon manat çox) təşkil edib.

Ötən il əsas kapitala yatırılan xarici investisiyaların həcmi isə 2023-cü illə müqayisədə 15,3 faiz və ya 784,3 milyon manat azalaraq 3 milyard 289 milyon manata bərabər olub. Son 5 ildə əsas kapitala yönəldilən xarici investisiyaların həcmi üzrə ən yüksək göstərici (5milyard 117 milyon manat) 2020-ci ildə qeydə alınıb. Onu da qeyd edək ki, 2020-ci ildə əsas kapitala yönəldilən investisiyaların ümumi həcmində daxili mənbələrin xüsusi çəkisi 69,95 faiz təşkil edirdisə, 2024-cü ildə 84,65 faizə bərabər olub.

Xatırladaq ki, əsas kapitala yönəldilən xarici investisiyalara yeni tikintiyə, yenidənqurma və genişləndirmə üzrə tikinti işlərinə, maşın və avadanlıqların əldə edilməsinə sərf edilən vəsaitlər aiddir. Bura, eyni zamanda, tikinti işlərində istifadə edilən xarici kreditlər, qrantlar və humanitar yardımlar hesabına ayrılan vəsaitlər də daxildir.




Hesabat dövründə əsas kapitala yönəldilən daxili investisiyaların ümumi həcminin 83,64 faizi və ya 15 milyard 177 milyon manatı qeyri-neft, 16,36 faizi və ya 2 milyard 968 milyon manatı neft-qaz sektoruna ayrılsa da, xarici investisiyalarla bağlı göstəricilər tam əksinə olub. Belə ki, ötən il xarici mənbələrdən əsas kapitala yönəldilən investisiyaların 84,22 faizi və ya 2 milyard 770 milyon manatı neft-qaz, 15,78 faizi və ya 519,2 milyon manatı isə qeyri-neft-qaz sektoruna ayrılıb.

Ötən il əsas kapitala yatırılan investisiyaların ümumi həcminə diqqət etsək, ayrılan maliyyə mənbələrinin 26,8 faizi və ya 5 milyard 739 milyon manatının neft-qaz, 73,2 faizi və ya 15 milyard 696 milyon manatının isə qeyri-neft-qaz sektoruna ayrıldığını görərik.

---

# Aqrar kreditlər artıb

**Ölkəmizdə fəaliyyət göstərən banklar 2024-cü ilin sonlarınadək kənd təsərrüfatı sahəsinə 1 milyard 786 milyon manat biznes kreditləri verib. Bu barədə XQ-yə Azərbaycan Mərkəzi Bankından məlumat verilib.**

Bildirilib ki, aqrar sektorun inkişafına təkan verən biznes kreditlərinin həcmi əvvəlki ilin sonu ilə müqayisədə 263,1 milyon manat və ya 17,3 faiz artıb. Xatırladaq ki, 2023-cü ilin sonunda Azərbaycandakı banklar tərəfindən kənd təsərrüfatı sahəsinə verilmiş biznes kreditlərinin həcmi 1 milyard 523 milyon manat olub.

Ötən ilin sonlarına olan məlumata əsasən, Azərbaycanda fəaliyyət göstərən bankların biznes kredit portfelinin həcmi 14 milyard 787 milyon manat təşkil edib. Bankların biznes kredit portfeli əvvəlki ilə nisbətən 2 milyard 170 milyon manat və 17,2 faiz artıb. 2023-cü ildə isə bankların biznes kredit portfelinin həcmi 12,6 milyard manat olub.



---

# Bank sektoru "sabit"dən "müsbət"ə yüksəlib




**"S&P Global Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın bank sektorunun risk qiymətləndirməsini (BICRA) "sabit"dən "müsbət"ə yüksəldib. Agentlik bununla bağlı yaydığı məlumatda belə bir dəyərləndirməni maliyyə institutlarının tənzimlənməsi və nəzarətinin təkmilləşdirilməsi təşəbbüslərinin reallaşdırılması ilə əlaqələndirib.**

"S&P"nin proqnozuna görə, ölkədə bu fəaliyyətin səmərəli şəkildə davam etdirilməsi gələcəkdə Azərbaycanda banklara nəzarət və tənzimləməni daha da gücləndirəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

*İzimiz, sorağımız…*

**Türklərin tarixində kişi hökmdarlar, sultanlar, şahlarla bərabər, dövləti zaman-zaman qadın hökmdarlar da idarə edib, adlarını türk tarixinin şanlı səhifələrinə qızıl hərflərlə yazdırıblar. Türk tarixinin qadın hökmdarı Tomris, Xəzər Xaqanlığının qadın hökmdarı Parsbit və ya Prisbit, Uyğur hökmdarı Dilşad xatun, Atabəy Cahan Pəhləvanın qızı, Naxçıvan xanı Cəlaliyyə, Quba və Dərbənd hakimi Pəricahan xanım, Dərbənd hakimi, Quba xanı Fətəli xanın xanımı Tuti Bikə, Şahbanu Raziyə Sultan Səfəvi…Bu siyahını uzatmaq da olar.**

# Hindistan Kleopatrası – Sultan Raziyə bəyim


Sultan Raziyə bəyim (hakimiyyət illəri)

Bugünki söhbətimiz isə 1206-cı ildən 1526-cı ilədək Hindistanda hakimiyyətdə olan Dehli Türk Dövlətinin (Bu dövləti idarə edən sülalələr və hökmdarlar haqqında ayrıca söhbət açacağıq) ilk və yeganə qadın hökmdarı, Şəmsiyyə sülaləsinin üzvü, dövlətin üçüncü hökmdarı Şəmsəddin Eltutmuşun qızı, Hindistan Kleopatrası adını alan Sultan Raziyyə bəyim haqqında olacaq.

Onu da deyək ki, 320 il hakimiyyətdə olan Dehli Türk Dövlətini 9 sülalə, 42 şah idarə edib. Orta əsrlərdə qadının hakimiyyətə gəlməsi və ya şahlığı ələ keçirməsi nadir hadisə idi. Raziyə bəyimin adı Dehli Türk Dövlətini idarə edən ən güclü hökmdarların sırasına düşüb.

1232-ci ildə Şəmsəddin Eltutmuş Qvalior qalasını fəth etdikdən sonra Dehliyə qayıdır. Bu vaxta qədər onun böyük oğlu, Benqal valisi Nasirəddin Mahmud vəfat etdiyi üçün Eltutmuş vəziri və bir sıra əmirləri yanına çağıraraq qızı Raziyənin onun vəliəhdi olduğunu elan edir və Tacəl-mülk Mahmuda bununla bağlı fərman hazırlamağı tapşırır.

Şəmsəddin Eltutmuş 1236-cı ildə vəfat etdikdən sonra atasının vəsiyyətinin əksinə olaraq əyanlar taxta Raziyə bəyimi yox, Şəmsəddinin oğlu Rüknəddin Firuz şahı çıxarırlar. Lakin əyləncə aludəçisi, dövləti idarə etmək qabiliyyəti olmayan Firuz şah xəzinəni boşaldır, dövlətin idarəçiliyi təhlükə qarşısında qalır.



Raziyə bəyim türbəsində memorial löhvə

Raziyə bəyim atasının mülkünün dağıdıldığını görür, lakin heç nə edə bilmir, ən nəhayət, əyanlarla söhbət edir, onları inandıra bilir ki, belə getsə, qısa müddətdə dövlət dağılacaq. Atasının vəsiyyətinin əksinə olaraq, taxta Rüknəddin Firuz şahın çıxarılması Raziyə bəyimi narahat edir. Odur ki, xalqa müraciət etmək qərarına gəlir. Əslində, o, atasının ona vəsiyyət etdiyi taxt-tacı geri almaq, diqqət və dəstək qazanmaq üçün atasının siyasətindən istifadə edir. Mənbələrə görə, bu dövrdə Hindistanda insanlar, demək olar ki, ağ paltar geyinib. Bu da isti ölkələr üçün xarakterik bir haldır. Şəmsəddin Eltutmuş şah sarayına gəlib şikayət edən, nədənsə narazı qalan, işləri ədalətlə həll olunmayan adamlar üçün ayrıca fərman vermişdi. Sarayın qarşısına gələn şikayətçilər üçün xüsusi zəng quraşdırılıb, zəngi vurmaqla yanaşı, sultandan ədalət istəyən hər kəsə rəngli


Raziyə bəyim (Dehli Arxeologiya Muzeyi)

paltar geyinməsi də təklif olunurdu. Sultan sarayda olmayanda iqamətgahın qarşısında rəngli paltar geyinənləri saraya dəvət edib şikayətinə qulaq asıb həll edərdilər. Raziyə həyatının bu çətin anında qırmızı paltar geyinib, xalqın arasında gəzib, qardaşına qarşı onlardan kömək istəyib. Atasının vəsiyyətinin əksinə olaraq taxtdan haqsız yerə uzaqlaşdırıldığını, ədalətsizliyin qurbanı olduğunu bildirib, Rüknəddinə qarşı ittiham irəli sürüb, həmçinin onu böyük qardaşı Nasirəddin Mahmudu öldürməkdə ittiham edib.

Raziyə bəyim müraciətində həyatı təhlükədə olduğu üçün xalqdan onu qorumağı xahiş edib. O, planını həm də cümə günü, müsəlmanların əksəriyyətinin məscidlərdə və digər ictimai yerlərdə toplaşdığı bir gündə həyata keçirir. Raziyənin planı baş tutur, hərbçilərin bir hissəsi və onu dəstəkləyən xalq ayağa qalxır, əyanlar da Raziyə bəyimin ağlına, dövləti böhrandan qurtarmaq planlarına inanıb cəmi 6 ay 28 gün sonra Rüknəddin Firuz şahı devirib yerinə onu əyləşdirirlər.

Sultan Raziyə bəyim 1205-ci il oktyabrın 13-də Dehli Türk Dövlətinin dördüncü Sultanı Şəmsəddin Eltutmuşun və Türkan xatunun ailəsində dünyaya gəlib. Dehli Türk Dövlətinin qurucusu və ilk hökmdarı Sultan Qütbəddin Aybəkin nəvəsi, dövlətin 5-ci sultanı, 320 il yaşayan sultanlığın yeganə qadın hökmdarı Sultan Raziyə bəyim 1236-cı ilin noyabrında 31 yaşında hökmdar elan edilib və 1240-cı illərdə hakimiyyətdə olub, dörd il böyük bir dövləti ədalətlə idarə edib.

Şəmsəddin Eltutmuşun hədd-buluğa çatmış üç oğlu ola-ola hakimiyyəti qızına verməsi ilə bağlı əyanlar etiraz edən zaman Şəmsəddin Eltutmuş deyib ki, oğlanlar vaxtlarının çoxunu sərxoşluqla və eyş-işrətdə keçirir, onlardan heç biri dövləti idarə etmək səviyyəsində deyil: "Mənim oğlanlarımın heç birində məmləkət idarətmə qabiliyyəti yoxdur. Raziyə qadındır, amma zəkası və uzaqgörənliyi ilə qardaşlarının üstündür. Raziyə hökmdara məxsus olan ən gözəl keyfiyyətlərə malik cəsur döyüşçü, elm adamlarını sevən, onların qayğısına qalan bir insandır".

Qardaşlarından fərqli olaraq Raziyə daha böyük potensiala malik idi, hərb işləri ilə daha yaxından maraqlanır, ox atmağı, qılınc tutmağı bacarır, müxtəlif sahələrdə istedad nümayiş etdirirdi və buna görə də atasının sevimlisi idi.

Şəmsəddin Eltutmuş Dehlidə olmadığı müddətdə Raziyə bəyimi özünə müavin təyin edirdi, o günlərdə bütün məsələlərin həlli Raziyəyə həvalə olunurdu.

Atası onu ləyaqətinə və zəkasına görə özünün varisi seçmişdi. İstər müsəlman dünyasında, istərsə də xristian Avropada qadınların knyazlıq, səltənət və sultanlıq sahibi olması qeyri-adi idi.

Mənbələrdə bildirilir ki, Raziyə bəyim imanlı və güclü bir dövlət başçısı olub. Mənbələrdə Sultan Raziyə bəyimin yaxşı təhsil aldığı, gözəl Quran oxuduğu bildirilir. Hərbi və inzibatçılıq xüsusiyyətləri ilə yanaşı, Sultan Raziyə həm də Şirin Dihləvi və Şirin Quri təxəllüsləri ilə fars dilində gözəl şeirlər yazıb və bu əsərlər farsca yazılsa da Hindistanda yaranan türk ədəbiyyatının ən gözəl nümunələri sırasına düşüb.


Sultan Eltutmuş və Raziyə bəyim

Raziyə bəyim hakimiyyəti dövründə Dehlidəki dini fanatizmlə bağlı üsyanı yatırdır, digər münaqişələrə son qoymaq üçün çalışır, dövlətin sərhədlərini möhkəmləndirmək üçün hərbi yürüşlər keçirir, qadın paltarını kişi libasına dəyişib yay-oxla silahlanaraq xalqın arasına çıxır, onlarla səmimi rəftar edərmiş. Bu, əyanların xoşuna gəlmir, onlar qadın paltarı geyməyən, başını bağlamayan, cübbə geyinib, başına külah qoyub fil üzərində, bəzən də at belində xalq arasında dolaşan Sultan Raziyə bəyimə qarşı çıxırlar.

O biri yandan da bölgələrin hakimləri Raziyə bəyimin hakimiyyətini tanımaqdan imtina edirlər. Raziyə bəyim ordu ilə onların üstünə gedir və danışıq yolu ilə onları sakitləşdirə bilir, bu hakimləri öz çətiri altında birləşdirir. Bədənpurda indusların müsəlmanlara hücumları ilə bağlı xəbəri eşidib ordu ilə oraya gedir və müsəlmanları xilas edir.

Hakimiyyətinin ilk günlərində atası Şəmsəddin Eltutmuşun dövründə qəbul olunan, qardaşı Firuz şahın zamanında ləğv edilən və əməl olunmayan qanunlara yenidən baxır, onları bərpa edir. Yeni qanunlara imza atır, ədalətin hakim olduğu bir dövlət yaradıldığını elan edir. Dövlətin qərbində hakimiyyətə qarşı etirazlar başlaması haqda xəbərlər gəlir, üsyançı induslar Dehlidəki Cümə məscidinə basqın edərək müsəlmanları öldürür, müxtəlif tələblər irəli sürürdülər. Raziyə bəyim öz ağlı, cəsarəti və idarəçilik bacarığı ilə etirazları və üsyanı yatıra bilir.

Raziyə gənc yaşlarından idarəçilik bacarığını nümayiş etdirib. Raziyə bəyimin şahzadəlikdən hökmdarlığa qədər olan yolu asan olmayıb, lakin o, Dehli Türk Dövlətinin uğurlu idarəçiliyinin açarı olan hərbi istedada, incə və dərin düşüncəyə malik idi.

Raziyə bəyimin hökmdarlığı illərində tökülən sikkələrdə "Umdat annisvan mələkə – i zaman Sultan Raziyə binti Şəmsəddin Eltutmuş" ("Qadınların həmdəmi, dövrünün hökmdarı Sultan Raziyə, Şəmsəddin Eltutmuşun qızı") sözlərini həkk etdirməyi əmr edir.

Dehli Türk Dövlətində türklərlə yanaşı, digər xalqların nümayəndələri də fəaliyyət göstəriblər. Həbəş əsilli Yaqutun Raziyə bəyimin yaxın ətrafında olması, təbii ki, türk əyanlarının xoşuna gəlmirdi.

Dörd illik hakimiyyətdən sonra Eltutmuşun oğlu Bəhram şahın təşəbbüsü, ordudakı bir neçə yüksək səviyyəli hərbçinin dəstəyi ilə Raziyə bəyimə qarşı üsyan qaldırılır. Onu devirib yerinə qardaşı Bəhram şahı gətirirlər. Hindistan yazıçısı Fatimə Mernissi "İslamın unudulmuş kraliçaları" kitabında iddia edir ki, Raziyə aşağı səviyyəli efiopiyalı bir kölə olan Yaqutu sarayda yüksək vəzifəyə yüksəltdiyi və ona aşiq olduğu üçün taxtdan salınıb. Düşmənləri onu diqqətlə izləyir və bu qulun Raziyənin əllərindən tutub ata minməsinə necə kömək etdiyinin şahidi olurlar. Hökmdarla ona tabe olan qul arasında belə bir ünsiyyət etikadan kənar hesab olunur və bu onun adına ləkə gətirirdi.

Belə bir vaxtda Raziyə hələ də onu dəstəkləyən qoşunlarla Dehlidən qaçır. Raziyə bəyimi əmir Malik İxtiyarəddin Altuniyyənin başçılıq etdiyi ordu təqib edirdi. Altuniyyənin və Raziyə bəyimin qoşunları arasında baş verən döyüşdə Raziyənin qüvvələri məğlub olur və əsir götürülür. Tezliklə Altuniyyə tutduğu əsirinə–Raziyə bəyimə aşiq olur, onu əsirlikdən azad edir və Raziyəyə dəstək verəcəyini bildirir. Altuniyyə qüvvələrini toplayıb Dehliyə birlikdə getməzdən əvvəl evlənirlər.

1240-cı ildə Altuniyyənin qüvvələri Raziyə bəyimin yenidən taxta çıxması üçün Dehliyə doğru yürüş edir. Müharibə Bəhram şahın qələbəsi ilə bitir, Altuniyyə öldürülür. Raziyə bəyim səhrada ac-susuz qalır, əsir düşməsin deyə kasıb bir indus kəndlisinin evinə sığınır, qoca indusdan çörək və su istəyir. Kişi Raziyə bəyimi evinə dəvət edib yemək verir, sonra Raziyə yorğunluqdan oturduğu yerdə yuxulayır. Yatarkən Raziyə bəyimin zirehli paltarının altında zəngin ləl-cəvahiratı görən kişi onun qadın olduğunu anlayır. Qoca Raziyə bəyimin üstündəki bahalı paltarlara, daş-qaşa görə onu yatdığı yerdə öldürür, atını oğurlayır, bütün qiymətli əşyalarını götürüb Raziyə bəyimi öz tarlasında basdırır. Qoca Raziyə bəyimin paltarlarını və daş-qaşını bazarda satmaq istəyərkən yaxalanır. Orta əsr tarixçisi Osman Curcaninin yazdığına görə isə Dehli döyüşündəki məğlubiyyətdən sonra Raziyə və Altuniyyə tutulur və Bəhram şahın əmri ilə 1240-cı il dekabrın 25-də Kantxal şəhərində edam edilirlər.


Raziyə bəyimin dövründə kəsilən sikkə

Raziyə bəyim sultan kimi Dehlidə dəfn olunub, məzarının üstündə türbə ucaldılıb, baş daşında ölüm tarixi 1240-cı il 13 oktyabr yazılıb. Elə o vaxtdan Sultan Raziyə bəyimin məzarı övliya kimi ziyarətgaha çevrilib, adamlar, illah da gənclər tez-tez bu məkana gəlir, dua edirlər.

Sultan Raziyə bəyimin həyatı və fəaliyyəti ilə bağlı xalq arasında əfsanələr, rəvayətlər dolaşıb, romanlar yazılıb. Onun həyatı ilə bağlı monoqrafiyalar, elmi əsərlər çap olunub.

1961-ci ildə Hindistanda rejissor Devendra Qoel "Raziyə sultan" adlı (ingilis dilində "Razia Sultana") bədii film çəkib.

1983-cü ildə Hindistanda rejissor Kamal Əmrohinin "Sultanın qızı" adlı filmi çəkilib.

2015-ci ildə 153 hissəli "Sultan Raziyə" serialı ekranlara çıxıb.

Bu serial Sultan Raziyə bəyimin həyatı, yüksəlişi və hakimiyyəti haqqında maraqlı bir dastandır. Kino mütəxəssisləri və sənətşünaslar bu filmi Türkiyənin məşhur "Möhtəşəm 100 il" filmi ilə müqayisə edir, hətta "Sultan Raziyə" serialının sənətkarlıq baxımından heç də o filmdən geri qalmadığını bildirirlər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**

# Rustavidə Azərbaycan uşaq hazırlıq kursu

**Gürcüstanın Rustavi şəhərində Azərbaycan dilində bağçalar olmadığı üçün bazar günləri fəaliyyət göstərən ana dilində məktəbəqədər hazırlıq kursu açılıb. Bu missiyanı şəhərdə azərbaycanlıların inteqrasiyası üçün yaradılmış Təhsil və Mədəniyyət Mərkəzi öz üzərinə götürüb.**



Balaca uşaqlar builki ilk dərs günündə çox böyük həvəslə iştirak ediblər. Valideynlər də belə bir kursun açılmasından çox məmnun olduqlarını bildiriblər.

Mərkəzin rəhbəri Raida Dərziyeva deyib: "Məktəbəqədər hazırlıq kursunun açılması barəsində elan verdikdə valideynlər həvəslə bizim təşəbbüsə qoşularaq uşaqlarını qeydiyyatdan keçirdilər. Əvvəlcə kursa 10 uşaq qəbul etdik. Hazırda onların sayı 20-yə çatıb. Məsələ bundadır ki, şəhərdə valideynlər, adətən, uşaqlarını gürcü bağçalarına yazdırırlar. Uşaqlar həftənin beş gününü gürcü dilli bağçalara getdikləri üçün kursun dərslərinin bazar günləri keçirilməsinə qərar verdik".

Kitablarla təminat məsələsi haqqında danışan mərkəz rəhbəri bu sahədə çətinlik çəkdiklərini və lazımi dərs vəsaitlərini öz daxili imkanları hesabına Bakıdan gətirdiklərini qeyd edib: "Uşaq erkən yaşlarından məktəbəqədər təhsilə cəlb olunmalıdır ki, təməli düzgün qoyulsun. Məktəbəqədər hazırlıq azyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu hazırlıq uşaqlarda ilkin dünya görüşünün, riyazi və məntiqi təfəkkürün, oxu və yazı bacarığının formalaşdırılması ilə yanaşı, gələcəkdə məktəbə gedərkən dərslərini daha yaxşı mənimsəməsinə zəmin hazırlayır".

Kursun əsas məqsədi uşaqlara Azərbaycan dilini sevdirmək və onları ana dilində orta təhsil pilləsinə hazırlamaqdır. Dərslər həftədə bir dəfə bazar günləri keçirilir. İlk gündə mərkəz uşaqlara dərs ləvazimatları hədiyyə edir.

***P.ƏMİRCANOV***
***XQ***

# “Şirin” xəstəliyin acı nəticələri

**Son illər ölkəmizdə şəkərli diabet xəstələrinin sayının artdığı qeyd olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda ilk dəfə şəkərli diabet diaqnozu qoyulmuş xəstələrin sayı 30 min 236 nəfər olub. 2020-ci ildə 25 min 430 nəfər qeydə alınıb. Rəqəmlər də göstərir ki, ildən-ilə şəkərli diabet xəstələrinin sayı artır. Təbii ki, burada genetik faktorlar xüsusi yer tutur, amma mütəxəssislər son illərdə müxtəlif xəstəliklərin sayının artmasını, yeni xəstəliklərin meydana gəlməsini qəbul etdiyimiz qidalarla bağlayırlar.**




Son statistikaya əsasən, hazırda ölkəmizdə diabet xəstələrinin sayı 300 minə yaxındır. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə dünyada 537 milyondan çox insan şəkərli diabetdən əziyyət çəkir. Ölüm səbəbinə görə, şəkərli diabet kardioloji və onkoloji xəstəliklərdən sonra 3-cü yerdədir. Bu xəstəlik yalnız tibbi yox, həm də sosial, iqtisadi və psixoloji problemlər yaradır.

Müsahibimiz Azərbaycan Endokrinoloqlar Cəmiyyətinin sədri, “Ege Hospital”ın uzman terapevt – endokrinoloqu Xəyyam Eyvazovdur:

**– Doktor, şəkərli diabet nədir, onu yaradan səbəblər hansılardır? Müayinə nəticələrinə uyğun kimlər şəkərli diabet xəstəsi sayılır?**

– Şəkərli diabet bir çox ciddi xəstəliklərin meydana gəlməsində rol oynayan və dünyada rast gəlinən bir xəstəlikdir. Əsas göstəricisi qanda şəkərin miqdarının çox olmasıdır. Xəstəliyin səbəbi insulin hormonunun ifrazının hansısa səbəbdən kifayət qədər və ya heç olmaması, ya da toxumaların insulinə qarşı rezistentlik hala gəlməsidir. Şəkər xəstəliyi arasında ən çox rast gəlinən və adətən 35–40 yaşdan sonra müşahidə edilən Tip 2 diabetdir. Diabetin bu növündə mədəaltı vəzin hüceyrələrində insulin ifraz olunarkən, insulin reseptorlarının fəaliyyətsizliyi səbəbindən hormona qarşı həssaslıq itir. Belə olanda insulin qlükozanı hüceyrələrə ötürə bilmir və onun miqdarı qanda çoxalmağa başlayır. Bununla da xəstəlik meydana çıxır. Şəkərli diabet qismən və ya mütləq insulin çatışmazlığı və periferik toxumalarda insulin rezistenti səbəbilə meydana çıxan qan şəkər yüksəkliyi ilə seyr edən xroniki xəstəlikdir. Şəkərli diabeti yaradan səbəblər tipinə görə müxtəlifdir. Bu 1-ci tipdə mədəaltı vəzinə qarşı yaranan antitellər, 2-ci tipdə isə metabolik pozğunluqlar, piylənmə, oturaq həyat tərzi, genetik faktorlar və digər amillərdir. Son protokollara əsasən, şəkərli diabet diaqnozu qoymaq üçün sadalanan kriteriyalardan biri – aclıq qan şəkərinin 126 mq/dl-dən, günün hər hansı vaxtında baxılan toxluq qan şəkərinin 200 mq/dl-dən, glikohemoqlobin dəyərinin 6.5 faizdən yüksək olmasıdır.

Aclıq qan şəkəri son yeməkdən sonra ən azı 8 saat ərzində heç bir şey yeməmiş və ya içməmiş bir insanın qan şəkərinin səviyyəsidir. Bu ölçü insanın mədəsi boş olduqda bədəndəki qlükoza səviyyəsini və maddələr mübadiləsinin əsas enerji mənbəyini göstərir. Toxluq (postprandial) qan şəkəri isə yeməkdən sonra insanın qan şəkərinin səviyyəsini ölçmək üçün istifadə edilən dəyərdir. Adətən, yeməkdən sonra 1–2 saat ərzində ölçülür. Nəticə insanın yediyi qidaların qan şəkəri səviyyəsinə necə təsir etdiyini qiymətləndirməyə kömək edir.

**– Şəkərsiz diabet xəstəliyi də olurmu?**

– Bəli, ancaq o, fərqli patologiyadır. Digər adı Diabetes İnsipidus adlanır və antidiuretik hormon (ADH) çatışmazlığı səbəbilə yaranır, çoxlu sidik ifrazı (6–8 litr) ilə özünü göstərir.

**– Şəkərli diabetin piylənmə, artıq çəki ilə əlaqəsi. Xəstəlik piylənmə yaradır, yoxsa piylənmə diabetə yol açır?**

– Piylənmə şəkərli diabetin yaranma riskini artırır. Artıq çəki hüceyrələrdə insulin həssaslığını azaldaraq, Tip 2 diabetin yaranmasına səbəb olur. Həmçinin şəkərli diabet zamanı insulin və bəzi şəkərsalıcı dərman preparatlarının qeyri-düzgün istifadəsi kilo artımına səbəb ola bilər.

**– Xəstəliyi təyin etmək üçün qlükoza, insulin, glikohemoqlobin yoxlanır. Glikohemoqlobin nədir? 1 aylıq pəhrizlə onun səviyyəsini endirmək olurmu?**

– Qlikohemoqlobin dəyəri qanda qlükozalaşmış hemoqlobinin miqdarını göstərir. Bu da bizə yaxın 3 ayda xəstənin qan şəkəri səviyyəsi barədə məlumat verir. Bir aylıq ciddi pəhriz saxlayanda qanda qlükoza və insulinin səviyyəsi enir, amma glikohemoqlobin əvvəlki göstəricini saxlayır. Çünki bu dəyər qanda eritrositlərin yaşam müddətilə korreksiya olunur. Eritrositlərin yaşam müddəti 3 ay olduğuna görə, qlikohemoqlobin 1 ay ərzində normaya düşmür. 3 ay sonra yenidən yoxlanır.

**– Dərmanların başqa orqanlara zərəri varmı? Şəkərin ürəyə təsiri necədir?**

– Həm şəkərsalıcı tabletlər, həm də insulinlər öncə digər canlılar üzərində test edilir, fayda–zərər nisbəti hesablanır, ABŞ-nin Qida və Dərman Adminstrasiyası (FDA) tərəfindən təsdiq aldıqdan sonra satışa çıxarılır. Dərmanların başqa orqanlara təsiri fərdi xarakter daşıyır.

Şəkərin ürək-damar xəstəliklərinə təsiri, əlbəttə ki, var. Şəkərli diabet zamanı yüksək qan şəkəri səviyyələri əsasən, damarları zədələyir. Bunun da nəticəsində ürək-damar xəstəlikləri, insult, infarkt riski artır.

**– Hestasion şəkər nədir, o, daimi ola bilərmi?**

– Əvvəllər diabeti olmayan qadında yalnız hamiləlik zamanı ilk dəfə əmələ gələn və ya aşkar olunan diabet növü hestasion şəkərli diabet (HŞD) adlanır. Bəzi qadınlarda HŞD növbəti hamiləliklərdə də müşahidə oluna bilər. Diabet hamiləliyin 24–28-ci həftələrində müayinə zamanı aşkarlanır. Bir çox hallarda HŞD sağlam qida və müntəzəm idman məşğələləri ilə idarə oluna bilər. Bəzən isə hestasion şəkərli diabetin insulinlə müalicə olunması tələbi yaranır.

HŞD olan qadınlara müntəzəm həkim nəzarəti tövsiyə olunur. Hamilələr həm mama-ginekoloqun və eyni vaxtda, endokrinoloqun nəzarətində olmalıdırlar. Qəbula təyin edilən vaxtdan əlavə olaraq, hansısa bir narahatlıq və ya əlamətlər olduqda da müraciət etmək vacibdir. Eyni zamanda, onlar sağlam qidalanmalıdırlar. Dietoloq qida qəbulunun düzgün planlaşdırılmasına kömək edə bilər. Hestasion şəkərli diabet hamiləlikdə meydana gələn və doğum sonrası keçən bir durumdur. Ancaq bu qadınların gələcəkdə Tip 2 şəkərli diabet olma riski artır.

**– Bəzən deyirlər ki, 50 yaşdan sonra yaranan şəkər elə də qorxulu deyil.**

– Nəzarət edilməyən şəkər hər yaşda qorxuludur. Xəstəlik uzun müddət müalicəsiz qalanda ürək və böyrək çatışmazlığına, görmənin itirilməsinə, ayaqlarda yaralara və nəticədə amputasiyaya səbəb ola bilər. İrəli sürülən fikir, bu yaşda əsasən Tip 2 diabet olması ilə əlaqəlidir. Çünki insulin rezervi qismən saxlanılır və bu xəstələrdə hiperqlikemik koma daha az müşa-



hidə edilir.

**– Medikamentoz müalicə vacibdirmi, yoxsa pəhrizlə şəkəri qaydada saxlamaq olar?**

– Qan şəkəri yüksəkliyi aşkarlanmış bütün pasientlər mütləq endokrinoloqa müraciət etməli və uyğun taktika seçilməlidir. Əsasən, prediabet dediyimiz durumlarda xəstəyə fərdi yanaşılmalıdır, ancaq şəkərli diabet diaqnozu almış bütün xəstələrə medikamentoz müalicə başlanılmalıdır. Unutmamaq lazımdır ki, həyat tərzi dəyişikliyini əvəz edən heç bir medikamentoz müalicə yoxdur.

**– Tövsiyəniz: necə qorunaq, nə yeyək, nə içək?**

– Əvvəla, tərkibində karbohidrat olan məhsulları qida rasionumuzda azaltmalı və hətta, çıxarmalıyıq. Bura qazlı içkilər, şirniyyat və un məmulatları, fastfood qidalar, yüksək miqdarda heyvani yağ, duz istifadəsi və s. aiddir. Yanaşı olaraq fiziki aktivliyin artırılması və zərərli vərdişlərin azaldılması həm şəkərli diabet, həm də ürək-damar xəstəliyi riskinin önəmli dərəcədə azalmasına səbəb olur.

Pəhriz şəkərli diabet xəstələrinin müalicəsində çox önəmlidir. Hətta ən müasir dərmanları qəbul edən, lakin pəhriz saxlamayan diabet xəstəsi heç zaman öz xəstəliyinə lazım olan səviyyədə nəzarət edə bilmir. Xəstə mütləq və dəqiq bilməlidir ki, hansı qidaları qəbul edə bilər, hansı qidaları yox və bu qaydalara ciddi riayət etməlidir. Şəkərli diabetin yüngül formalarında yalnız pəhrizin köməyi ilə şəkərin səviyyəsini normada saxlamaq mümkündür. Belə xəstəliyi olan insana ac qalmaq olmaz, çünki bu, qanda şəkərin kəskin enməsinə səbəb olur. Bunun nəticəsində xəstə koma vəziyyətinə düşə bilər. Qidanı gündə 5–6 dəfə olmaqla kiçik porsiyalarla qəbul etmək lazımdır. Adi şəkər və fruktoza qidalanmadan tam çıxarılmalıdır. Tərkibində şəkər və fruktoza olan qənnadı məmulatları da belə xəstələr üçün əks-göstərişdir. Hazırda fruktoza da diabet xəstələri üçün uyğun məhsul sayılmır.

**– Siz həm də Azərbaycan Endokrinoloqlar Cəmiyyətinin sədrisiniz. AEC-də şəkərli diabet xəstəliyi ilə bağlı əhalinin məlumatlanması üçün nə iş görülür?**

– Azərbaycan Endokrinoloqlar Cəmiyyəti yarandığı gündən həm əhalinin maarifləndirilməsi, həm də ölkədəki endokrinoloqların fikir mübadiləsi aparması üçün xarici qonaqların iştirakı ilə tez-tez görüşlər və konfranslar təşkil edir. Həmçinin Avropanın müxtəlif dərnək və təşkilatlarına üzv olaraq yeniliklərin ölkəmizdə tətbiqinə öz töhfəsini verir. Bir sözlə, cəmiyyətin məqsədi dünya endokrinologiyasına inteqrasiya etməklə ölkəmizdə bu sahənin inkişafına dəstək verməkdir.

Dövlət tərəfindən şəkərli diabet xəstələrinə xüsusi qayğı var. Bildiyiniz kimi, ölkəmizdə həm oral antidiabetik dərmanların, həm də insulinlərin bir qismi şəkər xəstələri üçün dövlət büdcəsindən təmin edilir. Amma ildən-ilə xəstəliyin müalicəsi üçün yeni preparatlar istehsal edilir, yeni üsullar aşkarlanır. Ümid edirik ki, irəliləyən dönəmlərdə yeni nəsil dərmanlar da bütün pasientlərimiz üçün əlçatan olacaq.

# “Nimesil” – dərmandır, yoxsa “yaman”dır?

**Bəzi xarici kütləvi informasiya vasitələrinin məlumatına görə, ABŞ-də və bir sıra Avropa ölkələrində “Nimesil” dərman vasitəsinin satışı və istifadəsi qadağan olunub. Qoyulan qadağanın səbəbi bu dərmanın yaratdığı çoxsaylı yan təsirlər və fəsadlarla bağlıdır.**



Mütəxəssislər bildirirlər ki, nimesulid tərkibli dərmanların istifadəsi müxtəlif ölkələrdə fərqli tənzimlənir. Bəzi ölkələrdə bu dərmanlar qadağan edilib istifadəsi məhdudlaşdırılsa da, digərlərində müəyyən şərtlər altında istifadəsinə icazə verilir.

Nimesulid Avstriya, Belçika, Fransa, Yunanıstan, Lüksemburq, Portuqaliya kimi ölkələrdə milli səviyyədə təsdiqlənib.

Bəzi ölkələrdə isə qaraciyər zədələnməsi ilə bağlı narahatlıqlar səbəbindən istifadəsi məhdudlaşdırılıb və ya satışı qadağan edilib. Hindistanda “Nimesil” istifadəsi ilə bağlı narahatlıqlar mövcuddur. Uşaqların içməsi ilə bağlı, xüsusilə, ehtiyatlı olmaq tövsiyə edilib və bəzi tibb mütəxəssisləri uşaqlarda istifadəsinin dayandırılmasını təklif ediblər.




İsveçrə, İspaniya, İrlandiya, Finlandiya və ABŞ-də nimesulid tərkibli dərmanlar qaraciyər zədələnməsi və digər ciddi yan təsirlərlə bağlı narahatlıqlar səbəbindən bazardan çıxarılıb və ya istifadəsi qadağan edilib.

Azərbaycanda da populyarlıq qazanan bu dərmana həddindən artıq tələbat var.

Qeyd edək ki, mediada yayılan məlumata görə, 2016-cı ildə Səhiyyə Nazirliyi müxtəlif adda olan 844 seriya nömrəli dərmanların dövriyyəsini qadağan edib. Onların sırasında Berlin-Chemie (Polşa) istehsalı olan “Nimesil 2 q. №30 bağlama” və “Nimesil 100 mq. №30 bağlama”, həmçinin, Berlin-Chemie Menarini (Almaniya) istehsalı olan “Nimesil 2 q. qranul №30 bağlama” dərmanları yer alır. Polşa istehsalı olan dərmanlar hazırda satışda olmasa da, Almaniyanın istehsal etdiyi “Nimesil” hazırda apteklərdə mövcuddur və satılır. Bununla bağlı Səhiyyə Nazirliyinə etdiyimiz müraciətə telefonu (596-07-12) qapatmaqla cavab verdilər.



**Tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyevanın qalmaqallı dərmanla bağlı fikirlərini öyrəndik. Həkim öncə “Nimesil”in orqanizmə olan zərərindən danışdı:**

– “Nimesil” dərmanının tərkibindəki nimesulid maddəsi mədəyə düşdükdə onun selikli qişasını, divarlarını zədələyir, toksiklik dərəcəsi yüksək olduğu üçün qaraciyərə ciddi təsir edir, mədədə yanma hissi yaradır, bəzən isə qanaxmaya səbəb olur. Mədə və bağırsağın selikli qişasının zədələnməsi isə iltihab, xora və qanama kimi hallara səbəb ola bilər. Həmçinin uzun müddət istifadə edildikdə qaraciyər və böyrək funksiyalarına mənfi təsir göstərir. Dərman yüksək qan təzyiqi, ürək çatışmazlığı və damar problemləri riskini artıra bilər. Qaşınma, dəri səpgiləri və nadir hallarda anafilaktik şok kimi reaksiyalar yaradar. Nəfəs darlığı və asqırma kimi simptomlar müşahidə edilə bilər.

Xüsusilə, uşaqlarda və böyrək çatışmazlığı olan şəxslərdə “Nimesil”in istifadəsi tövsiyə edilmir. Uşaqlarda qaraciyər zədələnməsi və mədə-bağırsaq problemləri riski daha yüksəkdir. Onlarda “Nimesil” qəbul etdikdən sonra başgicəllənmə, yuxululuq və digər sinir sistemi pozulmaları baş verə bilər. Böyüklər bu dərmanı yalnız həkim təyinatı ilə və qısa müddət ərzində qəbul etməlidir. Dərmanı içdikdən sonra hər hansı mənfi təsirlər müşahidə olunarsa, dərhal həkimə müraciət etmək lazımdır.

Həkim bildirdi ki, son 2 ilə yaxındır ki, apteklərdə soyuqlama, qrip xəstəlikləri ilə bağlı həkim resepti olmadan xəstələrə teraflyu ilə nimesili qarışdırıb içməyi, hətta həmin qarışımdan uşaqlara da verməyi tövsiyə edirlər:

– Biz ötən il belə hallarla rastlaşmışdıq. Onu da o apteklərdə edirdilər ki, orada çalışanların əczaçılıq üzrə təhsili yoxdur. Bir az da dərinə gedəndə aydın olurdu ki, dərman tövsiyə edənlərin bəzilərinin heç elementar tibbi təhsili də yoxdur. Olsa belə, əczaçı olmaq – dərmanların tərkibini bilmək, dərman əvəzedicilərini dozasına görə təyin etmək asan deyil. Sadəcə, “satıcılıq” edənin kimsəyə dərman tövsiyə etməsi absurddur. Mərkəzdən uzaq ucqar ərazilərdə bu hal daha çox baş verirdi. Özlərini savadlı hesab edib xəstələri “maarifləndirirdilər”, müraciət edənlərə “Nimesil”i antiqrip, antiviral dərmanlarla qarışdırıb içməyin daha yaxşı təsir edəcəyini məsləhət görürdülər.

Son dövrdə “Nimesil”in yüksək dozada qəbulu nəticəsində baş verən 3 ölüm hadisəsinin və 1 ağır komatoz vəziyyətin şahidi olmuşam. Biri hüquqşünas qadın, digər ikisi gənc oğlan nimesillə teraflyu qarışımından yüksək dozada istifadə etmələri səbəbindən vəfat etdilər. Qohumum – gənc tələbə isə həmin dərmandan koma vəziyyətinə düşmüşdü. Təcili və vaxtında müdaxilə ilə onu həyata qaytara bildik. Nimesili nəinki hansı preparatlasa qarışdırıb içmək, hətta özünü də tək halda çox istifadə etmək ağır nəticələr verər.

**Sonda Nurlana Əliyeva oxuculara müraciət edərək dedi:**

– Məsləhət görərdim ki, hər hansı dərmanı qəbul etməzdən öncə ailə həkimi ilə məsləhətləşəsiniz. Çünki, ailə həkiminiz sizin daxili orqanların hər hansı problemi ilə yaxından tanışdır. Hansı xəstəlikdə nə kimi dərmanın daha tez və müsbət təsir edəcəyini də o, daha yaxşı bilir. Sağlamlığınızı qoruyun.

# Xolesterin – dərmansız əridin

**Xolesterinin orqanizmdə yüksək səviyyədə olması ürək və damar xəstəliklərinin ilk risk amilidir. Xolesterin damarların divarlarında yığılaraq onların elastikliyini pozur, daraldır, zəif və kövrək edir. Nəticədə, damarların partlaması riski artır ki, bu da infarkt və insultun inkişafına səbəb ola bilər.**



Rusiyanın Pyatiqorsk Əczaçılıq Akademiyasının müəllimi, biologiya elmləri doktoru, professor Valeri Məlik–Hüseynov “Komsomolskaya pravda”ya verdiyi müsahibədə qanda xolesterini azaldan bəzi təbii üsullardan söz açıb.

1. Yemişan: 2 xörək qaşığı yemişan xırdalanır, üzərinə 1,5 stəkan isti su əlavə olunur, 1 saat termosda dəmlənir, süzülür və sonra gündə 3 dəfə yarım stəkan olmaqla yeməkdən 30 dəqiqə əvvəl içilir.

2. Qara qarağat yarpağı: 2 xörək qaşığı xırda doğranmış qara qarağat yarpağının üstünə 1 stəkan isti su töküb 1 saat gözləmək, süzdükdən sonra gün ərzində 2–3 dəfə, hərəsində yarım stəkan olmaqla qəbul etmək lazımdır.

3. Şüyüd toxumu: 1 xörək qaşığı şüyüd toxumunun üzərinə 1,5 stəkan isti su əlavə edilir, 1 saat saxlanır, süzülür, gün ərzində yarım stəkan içilir.

Bundan əlavə xolesterinin səviyyəsini aşağı salmaq üçün professor Məlik–Hüseynov artıq çəkidən azad olmağı, siqaret çəkməkdən imtina etməyi, hərəkətli olmağı, sağlam qidalanmağı tövsiyə edir.

***Səhifəni hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Əlibaba Məmmədov – 95**

# Muğam aləminin ustadı

**Azərbaycanın görkəmli xanəndəsi, bəstəkar, musiqi xadimi Əlibaba Məmmədovun zəngin tərcümeyi-halı var. 3 il əvvəl dünyaya əlvida desə də, onu sevənlərin ürəklərində yaşayır. 100-dən artıq mahnı və təsnifin müəllifi olan sənətkarın məlahətli ifaları heç vaxt "dəb"dən düşmür, xanəndələrin repertuarını bəzəyir.**



Əlibaba Baləhməd oğlu Məmmədov 1930-cu il fevralın 5-də Bakının Maştağa kəndində anadan olub. Neft Texnikumunu bitirib və 1 il Türkmənistanın Nebitdağ mədənlərində işləməyə göndərilib. Aşqabadda baş verməş 9–10 ballıq zəlzələdən sonra Azərbaycana qayıdıb. Dağıdıcı təbii fəlakət Aşqabadı viran qoysa da, 100 mindən artıq insanı öldürsə də, neftçi Əlibabanın şəxsində Bakıya, Azərbaycana gözəl bir xanəndə bəxş edib, desək, yanılmarıq. Əgər orada qalsaydı, kim bilir, istedadı parlayacaqdımı, şan-şöhrətli tanınmışlardan olacaqdımı?

Vətənə gələn 18 yaşlı Əlibaba el şənliklərində oxumağa başlayıb. Şirin, təmiz səsi ilə tez tanınıb. Onun sənətkar kimi yetişməsində Bakı və Abşeron kəndlərinin muğam mühiti böyük rol oynayıb. Musiqi təhsilini 1953–1958-ci illərdə Azərbaycan Dövlət



Musiqi Məktəbində ustad xanəndə Seyid Şuşinskinin sinfində alan gənc muğamın dərinliklərinə baş vurduqca bu nəhrin hünərvər qəvvası olub. Düz 35 il M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyanın və "Azkonsert" birliyinin solisti olub. Sənət məbədinin direktoru Niyazinin təşəbbüsü ilə "Hümayun" Xalq Çalğı Alətləri Ansamblını yaradıb və onun bədii rəhbəri olub. Sevilən xanəndənin bəstələdiyi çoxlu mahnılar, təsniflər, rənglər, dəramədlər xalq ruhunda olması ilə seçilib. O, pedaqoji fəaliyyəti sayəsində neçə-neçə istedadın parlamasına səbəb olub.

Gənc musiqisevərlər Əlibaba Məmmədovun çoxşaxəli fəaliyyətinə dərinliyi ilə bələd olmasalar da, onu Heydər Əliyev Fondunun layihəsi ilə Azərbaycan Televiziyasında keçirilən Televiziya Muğam müsabiqələrinin ən ədalətli, qayğıkeş, təəssübkeş münsiflərindən biri kimi yaxşı xatırlayırlar. Əlibaba müəllim Xalq artistləri Arif Babayev, Səkinə İsmayılova, Mənsum İbrahimov, Ramiz Quliyev, Əməkdar incəsənət xadimləri Sərdar Fərəcov və Nadir Axundovla birlikdə neçə-neçə gənc ifaçını inci, mərcan kimi seçib, fərqləndirib.

Hamının yadındadır ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2019-cu ilin dekabrında bir qədər nasazlamış Əlibaba Məmmədovun evində onu ziyarətə getdi və ilk tanışlıqlarını xatırlayaraq dedi: "O zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verdik. Yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə, iştirakınızla birlikdə böyük işlər gördük. Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəst-xətiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz.

Sizi hamı sevir... Mən sizinlə ünsiyyətdə olanda özüm üçün hər dəfə nəsə yeni bir şey aşkar etmişəm, öyrənmişəm. Siz böyük müəllimsiniz, siz 50 ildən çoxdur ki, musiqi kollecində dərs deyirsiniz və yeni gənc xanəndələr nəslinin yetişməsində misilsiz xidmətləriniz olub. Ona görə Əlibaba müəllim, bir daha çox sağ olun, sizi görməyə çox şadam və ən əsası, sizə möhkəm cansağlığı arzulamaq istəyirəm".

Milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi isə Azərbaycan muğamının UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan edilməsinə və Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahıya salınmasına nail olmuş Mehriban xanıma cavabında millətə, onun mənəviyyatına xidmətlərinə, sənətkarlara qayğısına görə minnətdarlıq etdi. Çox səmimi ovqatda keçən görüşün sonunda Birinci vitse-prezident Mehriban Əliyeva Əlibaba müəllimə möhkəm cansağlığı arzuladı.

Onu da qeyd edək ki, həmin görüşdən 2 ay sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Mərkəzində milli muğam sənətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşüblər. Dövlət başçısı Xalq artisti Əlibaba Məmmədova layiq görüldüyü "Şərəf" ordenini təqdim edərək deyib: "Siz uzun illərdir ki, xalqımızı öz sənətinizlə sevindirirsiniz. Həm gözəl ifaçı, xanəndə, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə böyük töhfələr vermisiniz. Siz 100-dən artıq mahnının müəllifisiniz və sizin ifanızda səslənən xalq mahnılarımız, muğamlarımız insanlara xüsusi zövq verir. Xalq sizi ürəkdən sevir, siz həm gözəl sənətkar, həm də gözəl insansınız. Siz Azərbaycan ziyalısının təcəssüm etdirirsiniz. İnsan kimi də sizin çox yüksək keyfiyyətləriniz var. Çox xeyirxah, ədalətli və eyni zamanda, həmişə öz biliklərinizi, öz sənətinizi gənc nəsillə bölüşməyə hazır olmusunuz. Sizin bu sahədə müstəsna xidmətləriniz yüksək qiymətləndirilir. Çünki bizim bir çox görkəmli muğam ifaçılarımız sizin məktəbinizin, belə demək mümkündürsə, məzunlarıdır".

Əlibaba Məmmədovun "İnandır məni", "Yaşa hələ", "Sən gərək güləsən", "Səni gözlər", "Mənim Azərbaycanım", "Məlif təsnifi", "Bakı", "Şur təsnifi" (Yasa, ürəyim), "Mehriban həkim" kimi mahnıları dillər əzbəridir. Onsuz da məşhur olan "Vətən yaxşıdır" mahnısı isə II Qarabağ müharibəsində igidliklə şəhid olmuş Xudayar Yusifzadənin səngərdə ifası ilə "döyüşən", qələbəyə səsləyən təsnifə çevrilib. Sözləri Əliağa Vahidə, musiqisi Əlibaba Məmmədova aid olan bu mahnı gənc əsgərin şərəfli ömrünün son akkordu olub.

*Deyirlər, bülbülə çəmən yaxşıdır,*
*İnsançün laləzar Vətən yaxşıdır.*
*Vahid, sorma Vətən nədən yaxşıdır,*
*Adı gələcək könlüm xəndan görünür.*

Xudayar o təsnifi səngərdə bayrağa çevirib, sonra Vətən torpağını özünün şəhid qanı ilə laləzar edib və ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb. 22 yaşlı, gülər üzlü qəhrəman gizirimiz mahnıya ikinci həyat verdiyinə görə onun xatirəsinə el arasında "Xudayar təsnifi" adlandırılıb və böyük sənətkar buna qəti etirazını bildirməyərək xeyir-dua verib. Bu, onun böyük ürək sahibi olduğunu göstərir.

Qonşum – uzun illər Əlibaba Məmmədovun "Humayun" ansamblının solisti olmuş Əməkdar artist Təhmiraz Şirinov hər görüşümüzdə ustadından həvəslə danışıb. Bu dəfə də xatirələri, musiqiçilər demiş, yeni xallarla zəngin oldu.

– Əlibaba müəllim həm insan kimi, həm də sənətkar kimi əvəzedilməz idi. O, musiqini, necə deyərlər, iliyinə, qanına qədər bilirdi. Əvvəl nağaraçı, tarzən olmuşdu. Bir ifanı dinləyən kimi oxuyanın qabında nə olduğunu bilərdi. Dostlar ilk dəfə məni ona təqdim edəndə səsimi dinləyib demişdi ki, axşam Mərdəkanda konsertimiz var, gəl, çıxış elə... Əlibaba müəllim, doğrudan da, hamımızın babası idi, ağsaqqalı idi. Gənclik illərində şair Əliağa Vahidlə dost olmuşdu, onun şeirlərinə mahnı bəstələyib, qəzəllərini oxuyardu. Məşqlər zamanı hər hansı birimiz sözləri səhv deyəndə saxlayıb irad tutar, qəzəlin, vurğunun mahiyyətini anladardı. Bizi o yetişdirib, tanıdıb. Sənət barədə nəsihətlərini unutmuruq.

O qədər qayğıkeş və həssas adam idi ki... Bəzən qastrola gedişimiz hansısa rayonda yerli rəhbərlik onu axşam qonaqlığına çağırardı. Onda Əlibaba müəllim deyərdi ki, ansamblın üzvləri də gəlsin, yoxsa – yox. Elə də olurdu. Bir dəfə Füzuli rayonundan qayıdırdıq. Yolda bizim "Azkonsert" birliyinin avtobusunda yanacaq qurtardı. Sürücü vedrə ilə aşağı düşüb yoldan ötən maşınlara xeyli əl elədi, amma saxlayan olmadı. Əlibaba müəllim də avtobusdan düşdü və onu görən neçə nəfər dərhal maşınını saxlayıb öz qulluğunu təklif elədi. Sənətkara xalqın ehtiramı, bax, belə böyük idi.

Təhmiraz Şirinovun balalarının toy məclislərini ustad sənətkarın açıb xeyir-dua verməsinin də şahidi olmuşam. Bu ailənin üzvlərini öz balaları kimi sevirdi. Yeri gəlmişkən, qonşumun övladı, indi artıq sənətşünaslıq üzrə fəlsəfə doktoru olan Səadət Təhmirazqızı 10 il əvvəl böyük sənətkar haqqında "Bizim ustad – Əlibaba Məmmədov" adlı nəfis tərtibatlı gözəl bir kitab yazaraq çap elətdirib. Elə Səadət xanıma da ilk xeyir-duanı böyük ustad verib.

Qonşularımdan danışarkən onu da əlavə edim ki, sənətşünaslıq namizədi, dosent Telman Xanış oğlu Qəniyev isə "Əlibaba Məmmədovun mahnıları" adlı dərs vəsaiti hazırlayaraq nəşr etdirib.

"Şöhrət", "İstiqlal", "Şərəf" ordenli fərdi təqaüdçü olmuş, "Qızıl çinar" beynəlxalq mükafatının laureatı Əlibaba Məmmədov, həqiqətən də, şöhrətli, şərəfli Azərbaycan milli musiqi mədəniyyəti adlı böyük bir bağın solmayan qızıl çinarıdır.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Tamaşaçı təəssüratı**

# Səhnədə "Ağ-qara" – həyatda görünməyən yara

**Ağ və qara.. Ağ rəng göyərçinə, qara isə parçalanmış buludlara bənzəyir. Bu buludlar yavaş-yavaş sökülüb yerə tökülür. Mən əlimə almağa çalışdıqca daha da parçalanır. Hə! Uzaqdan görürəm. Lap uzaqlardan bir qadın diqqətlə mənə baxır. Yox, bəlkə də, sən elə düşünürsən, özünü yanıltma.**

Qadın o qədər qorxurdu ki, mən ona toxunmaq istədikdə titrək əlləri ilə məni itələdi. Mənə "Günahkarsan" dedi!

– Mən? Mən, axı...

– Sən... Siz! Sizlər! Bu torpağın qoxusunu hiss edirsən? Bax.. nəfəssiz qalan balıqlar, balaca tısbağa... Bax, ovcumun arasından yavaş-yavaş getdi. Görürsən? Qaça bilmir. Siz insanlar günahkarsız! Yalnızca sözlərinizlə deyil, sərgilədiyiniz hər bir davranışla, atdığınız hər bir addımla onları məhv edirsiniz.

Qadın danışdıqca, sanki, ruhum bədənimdən qopub, ona sarılmaq istəyirdi. Acıları hiss edən insanlar bəzən ölümlə



yaşamağın arasında qaldığı kimi, o balaca canlılar da savaşırdı. Qadın torpağı əlləri ilə götürüb, saçlarına tökürdü, göz yaşları yanaqlarını islatdıqca sinəsində tutduğu yavru tısbağaya baxırdı.

Ətrafı qaranlıq bürümüşdü. Gözə görünən sadəcə torbada olan boş qutular idi. Ayaq basdığım hər yeri çirkləndirən bu boş qutular. Qadını kənardan xeyli izlədim. Əllərində tutduğu o boş, mənasız zibillər, bağrına basdığı qanadı qırılmış quş və tısbağa. Heç nə deyə bilmədim, çünki bəzi kəlmələr göydəki şimşək çaxan zamandan toza çevrilir...

Bu duyğuları bir tamaşaçı kimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Bölgə teatrlarının Bakı premyeraları" layihəsi çərçivəsində səhnə əsərinə baxan zaman yaşadım. Mingəçevir Dövlət Dram Teatrının direktoru, Əməkdar artist İntiqam Soltanın quruluşunda ekologiyanın qorunmasının vacibliyindən bəhs edən "Ağ və qara" mono-pyesinin hadisələri məni bu qarışıq keçidlərə apardı. Aktrisa Lalə Abuşovanın tamaşada canlandırdığı obraza baxdıqca göz yaşlarımı zorla saxlayırdım. Ətrafı çirkləndirən hər şey bəlkə də ona acımasız insanları xatırladırdı. İnsan cəllad ola bilərmi? Bu sual o qədər insanı düşündürür ki, bəzən ruhunda yaşayan ikinci Səmanı belə sorğuya çəkirəm.

Lalə xanım səhnəni qollarının arasına almaqla yanaşı, biz tamaşaçılara da səhnənin susan divarlarını dinlətməyə çalışırdı. Səhnə susqundur, amma aktyorların susmağa deyil, danışmağa, çağırış etməyə ehtiyacı var! Necə ki, Lalə Abuşova o səhnədə bizlərə çağırış etdiyi kimi.

Qələmim yazır, amma zehnimdə yarımçıq qalan sözlər var. Aktrisanın təqdim etdiyi hadisələr sanki bir kino lenti kimi gözlərim önündən keçir, zehnimi məşğul edir. Yaşantıları hiss etmək başqa, amma ağrını canında duyub, susmaq tamamilə başqadır. Biz təbiətə, ekologiyaya qəsd hallarına bəzən çox laqeyd yanaşırıq.

Bu tamaşa da bizim görünməyən yaralarımızı açdı, amma biz onları hiss etmədik, çünki torpağın altında, üstündə, coşqun dənizdə rəqs edib, pərvazlanan canlıların yanında susmalı idik...

***Səma MUĞANNA,***
***AYB üzvü, Prezident mükafatçısı***

# Moskvada Azərbaycan icmasının "Nəzər nöqtəsi" layihəsi

**Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Azərbaycan pavilyonunda Rusiyada yaşayan tanınmış azərbaycanlılarla görüşlər üçün platforma olacaq yeni "Nəzər nöqtəsi" layihəsi start götürüb.**



Layihənin məqsədi Azərbaycan icması nümayəndələri arasında açıq dialoq qurmaq, milli mədəniyyətimizi təbliğ etmək və soydaşlarımızın aktual məsələlərini müzakirə etməkdir.

Layihə çərçivəsində ilk qonaq Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev olub. Qonaqlar arasında Azərbaycan ziyalıları, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin fəalları, Moskva universitetlərində təhsil alan gənc soydaşlarımız, həmçinin Rusiya ictimaiyyətinin nümayəndələri olub.

Azərbaycan pavilyonunun direktoru Səadət Qədirova "Nəzər nöqtəsi" layihəsinin fikir mübadiləsi, Azərbaycan icmasının inkişaf perspektivləri və Rusiya–Azərbaycan ikitərəfli münasibətlərinin möhkəmləndirilməsi üçün platforma kimi əhəmiyyətini vurğulayıb. Görüş zamanı milli kimliyin qorunması, mədəniyyətlərarası əməkdaşlıq, gənclərə məxsus təşəbbüslərin və təhsil proqramlarının dəstəklənməsi məsələləri müzakirə olunub. İştirakçılar Azərbaycan və Rusiya universitetləri arasında əməkdaşlığa, həmçinin mədəni və işgüzar əlaqələrin genişləndirilməsinə xüsusi diqqət ayırıblar.

Səfir Rəhman Mustafayev layihənin təşkilatçılarına və görüş iştirakçılarına fəal mövqelərinə görə təşəkkürünü bildirib, xaricdəki Azərbaycan icmasının birləşməsinin əhəmiyyətini vurğulayıb. O, həmçinin belə təşəbbüslərin Azərbaycan ilə Rusiya arasında dostluğun möhkəmlənməsinə töhfə verdiyini qeyd edib və soydaşlarla açıq dialoqa hazır olduğunu bildirib. Görüş zamanı R.Mustafayev Azərbaycan–Rusiya münasibətlərinin hazırkı vəziyyəti, dünya siyasəti və iqtisadiyyatının aktual məsələləri üzrə rəsmi Bakının mövqeyi, səfirliyin Rusiyadakı Azərbaycan icmasının səylərinin birləşdirilməsi üzrə həyata keçirdiyi layihələr barədə danışıb.

***XQ***

# Daşkənddə mədəni əməkdaşlıq razılaşması

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Yunus Rəcəbi adına Özbəkistan Milli Musiqi Sənəti İnstitutu arasında əməkdaşlığa dair Memorandum imzalanıb.**



Sənədə əsasən, tərəflər iki ölkənin aidiyyəti qurumları arasında mədəniyyət, incəsənət, musiqi, təhsil, elm sahəsində əlaqələrin daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, birgə layihələrin həyata keçirilməsi istiqamətində müvafiq iş aparacaqlar.

Memorandumda AMM və MMSİ-nin Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti və s. sahələrə aid dərs vəsaiti, metodiki vasitələr və digər nəşrlərin təminatına dəstək verməsi də nəzərdə tutulur. Sənəddə qeyd olunur ki, milli musiqi sənətinin araşdırılması və inkişafı, musiqi təhsili üzrə mübadilə proqramları, ortaq mədəniyyət festivalları, sərgilər və konsert proqramlarının təşkili də həyata keçiriləcək. İnstitutda "Azərbaycan ocağı"nın yaradılması da nəzərdə tutulur. Mədəniyyət Mərkəzi "Azərbaycan ocağı"nın Azərbaycan mədəniyyəti, incəsənəti ilə bağlı nəşrlərlə və musiqi alətləri ilə təminatını öz üzərinə götürüb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Cahan savaşını finişə yönəldən Yalta konfransı

## *80 il əvvəl qaliblər məğluba siyasi məhkəmə qurmuşdular*



**Zaman keçdikcə, bu qəbildən olan tədbirlər daha tez-tez yada salınır. Çünki ölkələrə, regionlara və ümumilikdə, dünyaya böyük problemlər yaradan müharibələrin arası kəsilmir. İstənilən ədalətsiz müharibənin səbəbkarı isə mütləq cəzalandırılmalıdır. Həmin cəza tədbirlərindən biri də təzminat tələb edilməsidir. Təbii ki, Ermənistan dövlətinin son 40 ildə Azərbaycan iqtisadiyyatına vurduğu yüz milyardlarla (hətta, dəqiq hesablansa daha çox) dollar ziyanın ödənilməsi mütləq gündəliyə gətirilməlidir. Həmin prosesdə tarixdəki analoji proseslərə istinad ediləcəyi də danılmazdır.**

Bu il fevralın 5-də (bəzi mənbələr bu tarixi 4 fevral kimi göstərirlər) Yalta Konfransının 80 illiyi tamam olur. 1945-ci il fevralın 5-dən 11-dək Yaltanın Livadiya sarayında keçirilmiş İkinci Dünya müharibəsinə dair konfransın müharibənin başa çatmasından üç ay qabağa salınması o demək idi ki, müttəfiqlər artıq proseslərin necə nəticələnəcəyini yaxşı bilirdilər.

Xatırladaq ki, Livadiya sarayı Yaltanın yaxınlığındakı Mohabi təpəsində – 1910-1911-ci illər arasında memar Nikolay Krasnov tərəfindən tikilmişdir. İnşasında ağ Krım qranitindən istifadə olunmuş sarayın bəzi yerlərində İslam memarlığına aid izlər də vardır. 1917-ci il inqilabından sonra saray sanatoriya kimi istifadə olunmuş, 1993-cü ildə muzeyə çevrilmişdir.

1945-ci ilin fevralından sonra isə həmin möhtəşəm tikinti dünya siyasətçiləri və tarixçilər tərəfindən tez-tez yada salınır. Çünki alman faşizminə qarşı birlikdə mübarizə aparan dövlət başçıları – SSRİ rəhbəri İosif Stalin, Böyük Britaniyanın Baş naziri Uinston Çörçill və ABŞ Prezidenti Franklin Ruzveltin iştirakı ilə Yalta Konfransı bu sarayda keçirilmişdi. Ekspertlər yazırlar ki, həmin sarayın bağında 3 tarixi şəxsiyyətin şərəfinə əkilmiş 3 palma ağacı hələ də ziyarətçilərin maraq dairəsinə düşür.

Krım Konfransında qərara alınmışdı ki, Almaniya danışıqsız təslim olmalı və ərazisi işğal edilməlidir. Qeyd edilmişdi ki, SSRİ, ABŞ və Böyük Britaniyadan başqa, Fransaya da işğal zonası verilməlidir. Almaniyadan təzminat alınmasının vacibliyi isə xüsusilə qeyd olunmuşdu. Belə ki, konfrans qərara almışdı ki, Almaniya 20 milyard dollar təzminat ödəməlidir və bunun da, 10 milyard dolları SSRİ-yə çatmalı idi.

Bundan başqa, Krım Konfransında SSRİ qərb sərhədlərinin hamı tərəfindən tanınmasına nail olmuşdu. Bununla yanaşı, SSRİ Almaniya ilə müharibə qurtarandan 2-3 ay sonra Yaponiyaya qarşı müharibəyə başlamaq barədə götürdüyü öhdəliyə də sadiq qaldı. İosif Stalin Yaponiyaya qarşı müharibəyə başlamağın müqabilində Cənubi Saxalin, Kuril adaları, Mancuriyada Cənub – Şərqi Çin dəmir yolu və Port – Arturun SSRİ-yə verilməsini tələb etmişdi. Konfransın qəbul etdiyi "Azad edilmiş Avropa haqqında Bəyannamə"də göstərilirdi ki, qitə xalqlarının arzularına uyğun demokratik təsisatlar qurulmasına təminat veriləcəkdir. Eləcə də, konfransda gələcək Birləşmiş Millətlər Təşkilatının iş qaydaları müəyyənləşdirilmişdi. Xatırladaq ki, Yalta Konfransının qərarları 1945-ci ilin 17 iyul – 2 avqust tarixində keçirilmiş Potsdam Konfransında təsdiqlənmişdi.

Tarixçilər yazırlar ki, konfransın bütün qərarları iki məsələ ilə bağlı idi: Birincisi, Üçüncü Reyxin işğal etdiyi əraziyə yeni dövlət sərhədləri çəkmək lazım idi. Eyni zamanda, müttəfiqlərin təsir dairələri arasında qeyri-rəsmi, lakin ümumilikdə bütün iştirakçılar tərəfindən tanınan sərhədlərin müəyyən edilməsi lazım idi – bu məsələ Tehran Konfransında artıq başlamışdı .

**İkincisi,** müttəfiqlər anladılar ki, ümumi düşmən yox olduqdan sonra Qərblə SSRİ-nin zorla birləşdirilməsi öz mənasını itirəcək və buna görə də dünya xəritəsində çəkilmiş bölücü xətlərin dəyişməzliyinə zəmanət verən prosedurlar yaratmaq lazım idi. Ona görə də konfransın davam etdiyi 8 gün ərzində "Böyük üçlük" 8 görüş keçirmişdi.

Bu zaman xüsusilə vurğulamaq istədiyimiz məqamlardan biri də 80 il əvvəl Krımda faşist Almaniyasına qarşı qaldırılan tələblərin, qəbul edilmiş prinsiplərin hamısının bugünkü Ermənistana da tətbiq edilməsi zərurətidr.

Belə ki, Yalta (Krım) Konfransının iştirakçıları bəyan etmişdilər ki, onların əsas məqsədi alman militarizmini və nasizmini məhv etmək və "Almaniyanın bir daha heç vaxt sülhü pozmaq iqtidarında olmayacağına" (Ermənistan hələ də regiondakı sülhə təhdid törədir) , "bütün alman silahlı qüvvələrini tərksilah etmək, dağıtmaq və məhv etmək" zəmanəti yaratmaqdır (Ermənistan faşizmi hələ də silahlandırılır).

Eləcə də, bütün alman hərbi texnikasını ələ keçirmək və ya məhv etmək, hərbi istehsal üçün istifadə edilə bilən bütün alman sənayesini ləğv etmək və ya nəzarət altına almaq (təəssüf ki, Ermənistanda həmin proseslər Qafqazda sülhü pozmaq istəyən Avropa qurumlarının nəzarəti altına keçib), bütün hərbi cinayətkarları ədalətli və tez cəzalandırmaq (Ermənistanın hərbi cinayətkarlarının bəziləri Bakıda artıq ədalət məhkəməsi qarşısındadır), Nasist partiyasını, nasist qanunlarını, təşkilat və qurumlarını yer üzündən silmək (Ermənistanda faşist Almaniyasının zabiti olmuş Njde hələ də "yaşadılır", "İctimai qurumlardan və alman xalqının mədəni və iqtisadi həyatından bütün nasist və militarist təsirləri aradan qaldırmaq" (Ermənistanda terrorçu "Daşnaksütyun" partiyası və faşist ruhlu "Yerkrapah" antitürk qurumu hələ də fəaliyyətdədir).

Eyni zamanda,Yalta Konfransının bəyannaməsində vurğulanırdı ki, nasizm və militarizm kökündən kəsildikdən sonra alman xalqı xalqlar birliyində layiqli yer tuta biləcəkdir. Bu belə də oldu. XXI əsrdə, Qafqazda isə faşist Ermənistanının rəsmilərinə həm Azərbaycan, həm də Türkiyə rəhbərləri dəfələrlə xatırladıblar ki, öz xalqınızın gələcəyi naminə faşizmdən, müharibə və terrordan əl çəkməlisiniz.

***İ.QAÇAYEV***

***ABŞ-ın diplomatiya marşrutu***

# "Öncə Amerika", ilk addımda isə Latın Amerikası

**ABŞ dövlət katibi Marko Rubio ilk xarici turnesinə 5 Latın Amerikası ölkəsindən – Panama, El Salvador, Kosta Rika, Qvatemala və Dominikan Respublikasından başladı. Politoloqların sözlərinə görə, Rubionun xarici siyasət debütü ABŞ-ın mövqeyini gücləndirmək və Amerika diplomatiyasının yeni hücum üslubunu nümayiş etdirmək məqsədi daşıyır.**

Beynəlxalq icmalçıların ümumi rəyi belədir ki, Dövlət Departamentinin yeni rəhbərinin səfərinin nəticələri regiona və ümumiyyətlə, "qlobal çoxluq" ölkələrinə də təsir edəcək.

Marko Rubionun ötən şənbə günü başlayan Latın Amerikası turu cümə axşamına qədər davam edəcək. Dövlət katibinin səfərinin əsas məqsədlərinin qeyri-qanuni miqrasiya, cinayət və narkotik qaçaqmalçılığı ilə mübarizədə region ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də Çinə qarşı mübarizə olduğu bildirilir. Dövlət Departamentindən verilən rəsmi açıqlamaya görə, Marko Rubio "ABŞ-ın milli təhlükəsizliyini gücləndirməklə, Amerikanın sərhədlərini qorumaq və iqtisadi rifahı artırmaqla Tramp administrasiyasının "Öncə Amerika" xarici siyasətini inkişaf etdirmək üçün Latın Amerikasına səfər edir.



ABŞ Dövlət Departamentinin yeni rəhbəri isə "Vaşinqton post" qəzeti üçün yazdığı məqalədə ilk xarici səfəri üçün bölgə seçimini təsadüfi adlandırır və ABŞ-ın xarici siyasətinin uzun müddət əsassız olaraq dünyanın digər bölgələrinə yönəldiyini qeyd edir. Nəticədə, Marko Rubionun fikrincə, Latın Amerikasında Vaşinqtonun zəifləyən mövqeyini bərpa etmək üçün təcili həll yollarını tələb edən çoxlu problemlər var.

Marko Rubionun regiona ilk səfərini prezident Trampın Latın Amerikası ölkələri barədə səsləndirdiyi sərt bəyanatlardan sonra etməsi diqqət çəkir. Xatırladaq ki, Prezident Tramp Ağ evə qayıtdıqdan sonra bildirdi ki, Panama kanalına nəzarəti ABŞ-a qaytarmaq niyyətindədir. Xatırladaq ki, Panama kanalı 1920-ci ildə istismara verilmişdi, lakin 1977-ci ildə ABŞ-ın sabiq prezidenti Cimmi Karter kanala nəzarətin Panama hökumətinə təhvil verilməsini nəzərdə tutan müqaviləyə imza atmışdı. Panama Kanalı Sazişi onun neytral statusunu və dünya ticarətinin maraqlarına uyğun olaraq bu həyati vacib nəqliyyat marşrutunun mövcudluğunu nəzərdə tutur.

Bu günə olan məlumata görə, Birləşmiş Ştatlar Panama kanalından dünyanın istənilən ölkəsindən daha çox istifadə edir. Lakin, eyni zamanda, Prezident Tramp Panama hakimiyyət orqanları tərəfindən gəmilərin bu nəqliyyat arteriyasından keçməsi üçün nəzərdə tutulan yüksək tariflərdən narazıdır. Ağ evin sahibi, həmçinin kanal infrastrukturunda Çin şirkətlərinin fəal iştirakından məmnun deyil.

Prezident Tramp Panamanı strateji nəqliyyat arteriyasına nəzarəti itirməklə hədələdiyi halda, ABŞ-ın Latın Amerikası üzrə xüsusi nümayəndəsi Maurisio Klaver-Karon deyir ki, dövlət katibi Rubionun ölkəyə səfərinin məqsədi Çinin təsirinə qarşı çıxmaqdır: "Biz limanlardan və logistikadan tutmuş telekommunikasiya və digər infrastruktura qədər Panama Kanalı Zonasında Çin şirkətlərinin artan mövcudluğunu görürük. Bu, təkcə ABŞ-ın milli təhlükəsizliyi üçün deyil, həm də Panama və bütün Qərb yarımkürəsinin milli təhlükəsizliyi üçün çox narahatedicidir". Daha sonra Maurisio Klaver-Karone bildirir: "Bu, əsas sualdır. Çünki son nəticədə söhbət əsas, mühüm, strateji aktivdən gedir. Təbii ki, əgər XXI əsr Amerika əsri, Şimali və Cənubi Amerikanın qızıl əsri olacaqsa, o zaman bu strateji aktiv nə de-fakto, nə də de-yure Çinin nəzarəti altında ola bilər".

Dövlət Departamentinin bəyanatında da Marko Rubionun Panama prezidenti Xose Raul Mulino ilə danışıqlarında məhz bu məqam ərtafında müzakirə apardığı bildirir. "Rubio prezident Mulinoya məlumat verib ki, prezident Tramp Çin Kommunist Partiyasının Panama kanalı ərazisinə mövcud təsiri və Pekinin nəzarətinin Panama kanalının daimi neytrallıq və istismarı haqqında müqaviləni pozduğuna dair ilkin qərar qəbul edib. Dövlət katibi Rubio açıq şəkildə bildirib ki, bu status-kvo qəbuledilməzdir və təcili dəyişiklik olmasa, Birləşmiş Ştatlar müqavilə üzrə hüquqlarını qorumaq üçün lazımi addımlar atmalı olacaq".

Dövlət katibi Rubio ilə danışıqlardan sonra prezident Mulino bəyan edib ki, onun hökuməti Çinin qlobal iqtisadi layihəsi olan "Bir kəmər, bir yol"da iştirakdan imtina edir. Ancaq bundan əvvəl Panama kanalı üzərində suverenliyin və ölkəsinin müstəqilliyinin müzakirə oluna bilməyəcəyini vurğulayan Panama prezidenti Xose Raul Mulino son nəticədə ABŞ-ı qəzəbləndirməmək yolunu seçdi: "Mənim hökumətim 2017-ci ildə qoşulduğumuz "Bir kəmət, bir yol" təşəbbüsü üzrə Anlaşma Memorandumunu yeniləməyəcək. Layihədə iştirakımızı vaxtından əvvəl dayandırmaq imkanlarını da öyrənəcəyik".

Bunun fonunda Panama hakimiyyətinin ABŞ-ın təzyiqi ilə Çin meqalayihəsindən geri çəkilmək barədə qəfil qərarı Tramp administrasiyasına Ağ evə gəldikdən qısa müddət sonra Pekinin qlobal ambisiyalarına həssas imic zərbəsi endirməyə imkan verdi. Politoloqların sözlərinə görə, Panama hökumətinin qərarı "qlobal çoxluq" ölkələrini Vaşinqtonun tərəfinə çəkmək üçün bir presedent oldu. Bəs bu uğurun ardı olacaqmı? Yaxın dörd il ərzində bunun şahidi olacağıq.

***S.ELAY***
***XQ***

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

## *aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün*

# MÜSABİQƏ ELAN EDİR

**Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlərin sayı |
|---|---|---|
| Hidrogeologiya və mühəndis geologiyası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Faydalı qazıntılar kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Seysmologiya və yer təkinin fizikası kafedrası | Professor<br>Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1<br>1 |
| Kristalloqrafiya, mineralogiya və geokimya kafedrası | Professor<br>Müəllim | 1<br>2x1 |
| Zoologiya və fiziologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>3x1 |
| Biofizika və biokimya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Molekulyar biologiya və biotexnologiyalar kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>2x1<br>1 |
| Botanika və bitki fiziologiyası kafedrası | Baş müəllim | 1 |
| Biotibbi materiallar ICESCO kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Qədim dünya və orta əsrlər tarixi kafedrası | Baş müəllim | 1 |
| Arxeologiya və etnoqrafiya kafedrası | Müəllim | 2x1 |
| Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | Müəllim | 1 |
| Asiya və Afrika ölkələri tarixi kafedrası | Professor<br>Müəllim | 1<br>1 |
| Türk xalqları tarixi kafedrası | Baş müəllim | 1 |
| Qafqaz xalqları tarixi kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | Baş müəllim | 1 |
| Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Müəllim | 1 |
| Əmək və ekologiya hüququ kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Mülki hüquq kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Konstitusiya hüququ kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası | Müəllim | 1 |
| Mülki proses və kommersiya hüququ kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>2x1 |
| Cinayət hüququ və kriminologiya kafedrası | Baş müəllim | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Beynəlxalq ümumi hüquq kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>1 |
| İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>3x1 |
| Coğrafi ekologiya kafedrası | Müəllim | 3x1 |
| Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrası | Müəllim | 1 |
| Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrası | Müəllim | 5x1 |
| Bioekologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Ekoloji kimya kafedrası | Dosent | 1 |
| Cəbr və həndəsə kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Ali riyaziyyat kafedrası | Müəllim | 1 |
| Hesablama riyaziyyatı kafedrası | Müəllim | 1 |
| Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrası | Baş müəllim | 1 |
| Beynəlxalq münasibətlər kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>3x1 |
| Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası | Baş müəllim<br>Müəllim | 2x1<br>2x1 |
| Riyazi iqtisadiyyat kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Dünya iqtisadiyyatı kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Politologiya və sosiologiya kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>6x1<br>1 |
| Maliyyə və menecment kafedrası | Baş müəllim<br>Müəllim | 2x1<br>2x1 |
| İqtisadiyyat kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Sosiologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Sosial iş kafedrası | Müəllim | 3x1 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>2x1 |
| Psixologiya kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>2x1<br>2x1 |
| Pedaqogika kafedrası | Professor<br>Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1<br>2x1 |
| Gender və tətbiqi psixologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Fəlsəfə kafedrası | Müəllim | 1 |
| İngilis dili (humanitar fakültələr üzrə) | Müəllim | 1 |

**Qeyd- Müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.**

**Ünvan- AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 25 (30719) 5 fevral 2025-ci il, çərşənbə

İdman

## Ən güclü şahmatçıların Azərbaycan çempionatı



**Şahmat tariximizdə uzun illərdən sonra ilk dəfə bütün fəal zəka ustalarının iştirakı ilə Azərbaycan çempionatı keçirilir.**

Dünən kişi və qadınlar arasında 1/8 final mərhələsinin ilk oyunları keçirilib. Reytinqə əsasən, yüksək əmsala malik bəzi aparıcı qrossmeysterlər turnirə bu mərhələdən qoşulublar. İlk oyunda Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Aydın Süleymanlı, Məhəmməd Muradlı rəqiblərinə qalib gəliblər. Vüqar Rəsulov Rauf Məmmədov, Eltac Səfərli Vüqar Əsədli, Vasif Durarbəyli Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov isə Nicat Abasovla bərabərə qalıblar.

Qadınların yarışında isə Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Zeynəb Məmmədyarova, Gövhər Beydullayeva, Nərmin Kazımova qalib olublar. Nərmin Abdinova Səbinə İbrahimli ilə heç-heçə edib.

Olimpiya sistemi üzrə keçirilən yarışda 2 oyundan sonra bərabərlik qeydə alınacağı təqdirdə, tay-brek oynanılacaq.

## İdmançımız "İlin ən yaxşı parataekvondoçusu"dur

**Azərbaycan millisinin parataekvondoçusu İmaməddin Xəlilov növbəti dəfə fərqlənib.**




Paralimpiya çempionu "İlin ən yaxşı parataekvondoçusu" nominasiyasının qalib olub.

O, "mundotaekwondo.com" saytının sorğusunda səsçoxluğu ilə bütün rəqiblərini qabaqlayıb. 2011-ci ildə təsis edilən bu portal taekvondo üzrə ixtisaslaşıb.

Qeyd edək ki, Xəlilov Paris Paralimpiadasında qızıl medal qazanıb. O, həmçinin dünya reytinqinin hazırkı lideridir. İ.Xəlilov Dünya Taekvondo Federasiyası (WT) tərəfindən 2024-cü ilin ən yaxşı kişi parataekvondoçusu adına da layiq görülmüşdü.

## Bakıda "Formula 1"in təqvimi açıqlanıb



**Bu il Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisində əsas yarışın başlayacağı vaxt müəyyənləşib.**

Turnirin rəsmi saytının məlumatına görə, əsas yarış sentyabrın 21-də, yerli vaxtla saat 15:00-da start götürəcək.

Sentyabrın 19-da, saat 12:30-da birinci sərbəst yürüş, 16:00-da isə ikinci sərbəst yürüş başlayacaq. Növbəti gün saat 12:30-da üçüncü sərbəst yürüş, 16:00-da isə təsnifat yarışı keçiriləcək.

Vurğulayaq ki, "Formula 1"də yeni mövsüm martın 16-da Avstraliyada start götürəcək və dekabrın 7-də Abu Dabidə başa çatacaq.

*Leyla QURBANOVA*
*XQ*

Yaşıl adalar

# Bozdağın qoynunda bir qoruq vardır...

### *Türyançay bu gözəlliyə layla çalır*



**Hörmətli oxucu! Azərbaycan təbiəti ilə tanışlıq məqsədi ilə sizə təqdim etdiyimiz növbəti yazı Bozdağın qoynunda yerləşən Türyançay Dövlət Təbiət Qoruğu barədədir. Hələ Bozdağın adını eşitməzdən əvvəl Xalq şairi Səməd Vurğunun bu misraları yaddaşımda həkk olunmuşdur:**

*Bozdağın qoynunda bir dəniz vardır,*
*Çinarlar sahildə qatar-qatardır.*

Bəllidir ki, bu misraların yer aldığı "Muğan" poemasında şair böyük bir şövqlə qurucu insan əlinin möcüzəsi olan Mingəçevir dənizindən və onu araya-ərsəyə gətirən əmək bahadırlarından yüksək poetik dillə söz açır. Biz isə Boğdağın qoynunda ana Kürün üzərində qurulmuş bu dəryaçayın özündən deyil, ətrafındakı arid meşə zolağının flora və faunasını qorumaq məqsədilə 1958-ci ildə yaradılmış Türyançay Dövlət Təbiət Qoruğundan bəhs edəcəyik.

Qoruq yaradılanda onun ərazisi əvvəlcə 12,3 hektar olmuşdur. 2003-cü ildə Nazirlər Kabinetinin 3 yanvar tarixli qərarı ilə ərazisi iki dəfə genişləndirilmiş və sahəsi 22,5 hektara çatdırılmıdır. Qoruq Ağdaş, Oğuz, Yevlax və Qəbələ rayonlarının ərazisində yerləşir.

Bir halda ki, qoruq adını Türyançaydan götürüb, Kürün sol qolu olan bu çay barədə də söz açmağa dəyər. Bəllidir ki, ilin bütün fəsillərində bolsulu Türyançay Baş Qafqaz silsiləsinin cənub yamacından axaraq, süni kanal vasitəsilə Kürə tökülür. Qəbələ, Ucar, Ağdaş və Zərdab rayonlarının ərazisindən axır. Türyançayın uzunluğu 180 kilometr, hövzəsinin sahəsi 1840 kvadrat kilometrdir. Başlanğıcını Azərbaycanın ən uca zirvəsinin qərar tutduğu Bazardüzü dağının (3680 metr) cənub-qərb yamaclarından alır.

İndi isə qoruqla bağlı söhbətimizə qayıdaq. Qeyd etmək lazımdır ki, burada qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-qəhvəyi, qonur, allüvial (sel və daşqınlardan sonra yaranan lilli çöküntülər) çəmən-meşə torpaqları inkişaf etmiş, bendlend sahələr yayılmışdır. Bendlend alçaq dağlıq ərazidə kəskin və mürəkkəb parçalanmış relyef anlamında işlənir. Əkinçilik üçün yararsız hesab olunur.

Arid iqlim şəraitində ərazinin bitki örtüyü zəif inkişaf etmişdir. Quru subtropik iqlim Türyançay qoruğunun sahəsi üçün səciyyəvidir. Ərazidə qışı quraq keçən mülayim-isti yarımsəhra və bozqır iqlim tipləri hakimdir. Yayı isti, qışı isə mülayim-isti keçir. Orta illik temperatur müsbət 14 dərəcədir. İl ərzində yağıntının miqdarı 500 millimetrə, yağıntılı günlərin sayı isə 90 günə çatır.

Qoruğun özünəməxsus florası var. Burada ağac və kol bitkilərindən ən çox ardıc və saqqızağacı, qismən də gürcü palıdı, gürcü ağcaqayını, qaratikan, Şərq doqquzdonu, gilas, nar, murdarça, sarağan, efedra və s. yayılmışdır.

Qoruğun ərazisində çöl donuzu, qonur ayı, adi porsuq, daşlıq dələsi, adi tülkü, boz dovşan, adi çaqqal, Avropa vaşaqı və s. məməli vəhşi və çöl heyvanları məskən salmışlar. Qoruğun ərazisi heyvanların ən əlverişli qışlaq yeridir.

Burada sürünənlərdən müxtəlif ilanlara və kərtənkələlərə rast gəlinir. İlanlardan gürzə daha çoxdur. Türyançayın sularında Xəzər tısbağasına tez-tez rast gəlinir. Quşlardan adi çil kəklik, adi qurqur, ağbaş kərkəs, leşyeyən ağkərkəs, qara kərkəs, adi zığzığ, payız bülbülü, dağ vələmirquşu, uzunquyruq arıquşu və s. məskunlaşmışdır. Qoruqda Azərbaycan Respublikasının "Qırmızı kitabı"na adları daxil edilmiş şahin qızılquş, bərqud, çöl qartalı qorunur.

Əvvəllər Türyançay qoruğunun Eldar şamı, Sultanbud saqqızağacı meşəliyi, Şirvan yarımsəhra bitkiləri sahəsi kimi 3 filialı var idi. 300 hektarlıq sahəsi olan Eldar Şamı filialı Respublika hökumətinin 21 noyabr 1967-ci il tarixli qərarı ilə Göygöl Dövlət Təbiət Qoruğuna verilmişdir. Sonra ərazi genişləndirilmiş və Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 16 dekabr tarixli sərəncamı ilə 1686 hektar ərazidə Eldar Şamı Dövlət Təbiət Qoruğu yaradılmışdır.

*M.HACIXANLI*
*XQ*

# Məktəblilərimiz orbitə peyk buraxacaqlar

**Məktəblərin müasir texnoloji avadanlıqlarla təmin edilməsi və müəllimlərin peşəkar inkişafı istiqamətində atılan addımlar şagirdlərin gələcək uğurlarında mühüm rol oynayır. Kosmik yeniliklərlə bağlı seminarlar, təlim proqramları və layihələr vasitəsilə şagirdlər kiçik yaşlarından müasir texnologiyaların necə işlədiyini öyrənir və bu sahədə öz gələcək karyeralarını qurmağa təşviq olunurlar.**



2025-ci ildə bu təşəbbüslərin zirvə nöqtələrindən biri olaraq "SpaceX" daşıyıcı raketi vasitəsilə "PocketQube" piko-peykinin kosmik orbitə buraxılması planlaşdırılır. Bu layihə KOSMİK Akademiyanın təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Təhsil İnstitutu, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, "Paşa Holdinq", Braziliya Kosmik Agentliyi və Braziliyanın "IDEIA Space" şirkətinin dəstəyi ilə keçirilən "Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi" çərçivəsində 7–9-cu sinif şagirdləri arasında keçiriləcək.

Xatırladaq ki, "PocketQube" peykləri ilk dəfə 2013-cü ilin noyabr ayında orbitə buraxılıb. Bu buraxılış Avstriyaya məxsus "UniSat-5" platforması vasitəsilə həyata keçirilib və layihə çərçivəsində bir neçə minipeyk, o cümlədən "WREN" (Almaniya), "T-LogoQube" (ABŞ) və "QBScout-1" (İtaliya) peykləri orbitə yerləşdirilib. Bu konsepsiya yalnız texnoloji tərəqqinin məhsulu deyil, həm də kosmosun hamıya aid olduğu ideyasının bir növ simvoludur. Standart olaraq ölçüsü 5x5x5 sm, çəkisi isə təxminən 250 qr olan bu peyklər möhkəm materiallardan (alüminium ərintiləri, karbon kompozitlər) hazırlanır ki, bu da həm mexaniki davamlılığı, həm də istilik idarəetməsini təmin edir.

"SpaceX"in "birgə buraxılış proqramı" ("rideshare") vasitəsilə kiçik peyklərin orbitə buraxılması xərclərinin azalması layihənin iqtisadi baxımdan daha əlçatan olmasını təmin edir. "Rideshare" proqramının mahiyyəti ondan ibarətdir ki, bir raket buraxılışı zamanı müxtəlif müştərilərə məxsus olan kiçikölçülü peyklər eyni anda orbitə çıxarılır.

Bundan əlavə, "SpaceX"in yüksək etibarlı buraxılış platforması "PocketQube" peykinin təhlükəsiz şəkildə orbitə çatdırılmasını təmin edəcək və layihənin texniki və elmi məqsədlərinin uğurla həyata keçirilməsinə imkan yaradacaq. Bu təşəbbüslər azərbaycanlı məktəblilərin beynəlxalq kosmik texnologiyalara inteqrasiyasını, qabaqcıl texnologiyaların təhsilə mühüm təsirini, məktəblilərin rəqəmsal savadlılığının artırılması istiqamətində atılan addımların rolunu bir daha vurğulayır.

*Qəzənfər QASIMOV*
*XQ*

## Nəhəng asteroid 7 il yol gələcək



**Futbol meydançası boyda olan "2024 YR4" adlandırılan asteroid Yerə yaxınlaşır. Alimlərin hesablamalarına görə, onun atmosferdə partlayışının gücü Xirosima bombasından 500 dəfə çox olacaq. Asteroidin ehtimal olunan düşmə yeri Sakit və Atlantik okeanları, Cənubi Amerika, Afrika və Cənubi Asiya əraziləri göstərilir.**

Mütəxəssislər bildirirlər ki, o, böyük bir şəhəri məhv etmək gücünə malikdir. Yox, əgər okean üzərində partlayarsa, bu, xüsusilə sahilə yaxın ərazidə baş verərsə, dəhşətli sunamiyə səbəb ola bilər. Fəlakətin qarşısını alacaq tədbirlər səmərəsiz olarsa, əhalinin mümkün zərbə zonasından təxliyəsi həyata keçiriləcək.

Qeyd edək ki, NASA tərəfindən "xüsusi diqqət tələb edən obyekt" adlandırılan asteroid 2032-ci il 22 dekabrda Yerlə toqquşa bilər. Bu səma cismi ilk dəfə 27 dekabr 2024-cü ildə Çilidəki "El Sauce" rəsədxanasında aşkar edilib. Astronomların hesablamalarına görə, onun diametri 40-90 metr arasında dəyişir.

*S.FİDAN*
*XQ*

## Abşeronda külək, bölgələrdə yağış, duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli olacağı, axşam isə arabir yağış yağacağı ehtimalı var.**



Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 4-6°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz şərq rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Axşam arı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-8° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, redaktor müavini Tahir Aydınoğlu, məsul katib İlqar Rüstəmov, əməkdaşlar Ruslan Rəfizadə və Namiq Əhmədov AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədliyə həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hərbi prokurorunun müavini Fuad Məmmədova əzizi

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Əlibala Məhərrəmzadə, tarixçi-diplomat Eynulla Mədətli və şair Ramiz Qusarçaylı AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədliyə həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3051
SİFARİŞ 240
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00